AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 6 (1351), 6 - 12 fevral 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Çingiz Hüseynzadə: “Qış idmanı növlərinin inkişafı üçün maddi-texniki baza yaradılıb”

Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə Pxençxan-2018 Qış Olimpiya Oyunlarından əvvəl “Olimpiya dünyası” qəzetinə eksklüziv müsahibə verib. Çingiz Hüseynzadə ölkəmizin olimpiadada iştirakı, qış idman növlərinin inkişafı və təbliğindən danışdı.

*(ardı 2-ci səhifədə)*

## Bakıda “Öz karyeranı qur!” mövzusunda Forum keçirilib




Fevralın 2-də Azərbaycan Gəncləri Günü münasibətilə Formula-1 yarışlarının ölkəmizdəki təşkilatçısı “Bakı Şəhər Halqası” Əməliyyat Şirkətinin təşkilatçılığı ilə Davos formatında Forum keçirilib.

“Öz karyeranı qur!” mövzusunda təşkil olunan Forumda gənclər və idman naziri Azad Rəhimov, ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta, təhsil nazirinin müavini Firudin Qurbanov, “BP-Azerbaijan” şirkətinin insan resursları üzrə vitse-prezidenti Leyla Novruzova və Milli Məclisin gənclər və idman komitəsinin sədri Fuad Muradov iştirak ediblər.

Forumun açılış mərasimində Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Sonra Formula-1 könüllülərinin fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

*(ardı 2-ci səhifədə)*

## *“Azərbaycan mənim üçün doğmadır”*

Fevralın 5-də Azərbaycan Milli Olimpiya Komitəsində (MOK) ölkəmizi Pxençxan-2018 Qış Olimpiya Oyunlarında təmsil edəcək idmançı -Patrik Braxnerlə görüş keçirildi.

Görüşdə Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibinin müavini Azər Əliyev iştirak edirdilər.

“Olimpiya dünyası” qəzeti eksklüziv olaraq səfərdən əvvəl Patrik Braxnerin olimpiada ilə bağlı fikirlərini öyrəndi.



Patrik Braxner bizimlə söhbətində Azərbaycanı çox sevdiyini və ölkəmizi Pxençxan-2018 Qış Olimpiadasında təmsil edəcəyi üçün qürur duyduğunu dedi. İdmançımız yarışa ciddi hazırlaşdığını və olimpiadada nəticə qazanmaq arzusunda olduğunu bildirdi. Slalom və nəhəng slalom yarışlarında kifayət qədər güclü idmançıların yarışdığını deyən, Patrik Braxner Avstriya və Norveç idmançılarını favorit adlandırdı. “İdmana necə gəlmisiniz?” sualımızı isə o belə cavablandırdı : “İdmanla 13 yaşından məşğul oluram. Bu sahəyə uşaqlıqda fiziki problemlərim olduğundan, yəni həkimlərin məsləhəti ilə gəlmişəm. İştirak etdiyim yarışlarda da bəzi zədələrim olub. Bu gün idmanda olduğum üçün xoşbəxtəm”.



Kifayət qədər səmimi insan təsiri bağışlayan Patrik Braxner ölkəmiz haqqında gözəl sözlər dedi: “Azərbaycan mənim üçün çox doğmadır, bu ölkə, onun insanları mənim həyatımın bir hissəsinə çevrilib. Bu ölkənin insanları çox qonaqpərvər, səmimidirlər. Mən 3 ildir ki, ABŞ-da yaşayıram və məni tanıyan insanlara, yaxınlarıma bu füsunkar ölkə haqqında sevə-sevə danışıram. Hər dəfə Bakıya gələndə nəsə bir yenilik görürəm. Təəssüf edirəm ki, Azərbaycan dilində danışa bilmirəm, amma öyrənmək istəyirəm”.

## Cüdoçularımız Avropa kubokunu 2 medalla başa vurdular

Bolqarıstanın paytaxtı Sofiya şəhərində təşkil olunan cüdo üzrə Avropa kuboku yarışına yekun vurulub. Turnirdə Avropanın 29 ölkəsindən 244 cüdoçu mübarizə aparıb. Komandamız yarışda 15 idmançı ilə təmsil olunub. Beynəlxalq turnirin ilk günü Azərbaycan milli komandası üçün uğurlu olub. 60 kq çəki dərəcəsində mübarizə aparan Tofiq Məmmədov bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb. Cüdoçumuz finala qədər Fransa, İspaniya və Bolqarıstan təmsilçilərini məğlub edib. Həlledici görüşdə rusiyalı Səxavət Hacıyevə qalib gələn Azərbaycan cüdoçusu Avropa kuboku yarışında 1-ci yeri tutub.



Turnirin son günündə Azərbaycan millisi aktivinə daha bir medal yazdırıb. +100 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Uşangi Kokauri bürünc medal qazanıb. Cüdoçumuz 3-cü yer uğrunda görüşdə Ukrayna təmsilçisi Stanislav Bondarenkoya qalib gəlib.

Beləliklə cüdoçularımız Sofiya turnirində 1 qızıl və 1 bürünc medal qazanaraq ümumi komanda hesabında 4-cü yeri tutub.

## Anons

*Antipov memorialına yekun vurulub*

*Əməkdaşlıq haqqında memorandum imzalanıb*

*Zəka sahiblərimiz “Fajr Sabalan Cup” turnirində*

Səh. 2

*“Heç vaxt həyatımdan şikayətlənməmişəm”*

Səh. 3

**“Ağ Olimpiada”- soyuq qışın isti hərarəti**

Səh. 4-5

*Elxan Məmmədov:*

***“Millətlər Liqası bizim üçün yeni imkanlar, şanslar yaradır”***

Səh. 7

PyeongChang 2018™

## XXIII Qış Olimpiya Oyunlarına 3 gün qalır

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

*“Sumqayıt” klubunda yerli futbolçuların inkişafı üçün yüksək şərait yaradılıb*

Səh. 6

# Çingiz Hüseynzadə:
## “Qış idmanı növlərinin inkişafı üçün maddi-texniki baza yaradılıb”

(əvvəli 1-ci səhifədə)

***- Çingiz müəllim, Azərbaycanı XXIII Qış Olimpiadasında təmsil edən idmançımızdan hansı nəticəni gözləyirsiniz?***

- Azərbaycan Olimpiya komandası Naqano-1998 Qış Olimpiadasından indiyədək təşkil edilən bütün olimpiadalarda iştirak edib. Komandamız hər dəfə müxtəlif sayda idmançı ilə təmsil olunub. Pxençxan-2018 Olimpiadasında ölkəmizin şərəfini yalnız bir idmançı qoruyacaq. Patrik Braxner artıq ikinci dəfədir ki, olimpiadada Azərbaycanı təmsil edir. O, kifayət qədər təcrübəli idmançıdır. Əsas iştirakdır, medal qazanmağa gəlincə, bu idmandır, hər şey ola bilər.

***- Azərbaycan ilk dəfə qış olimpiadasında 1998-ci ildə iştirak edib. O vaxtdan indiyədək qış idman növlərinin inkişafı üçün hansı işlər görülüb?***

- Son illər ölkəmizdə dağ xizəyi idman növü geniş inkişaf etməyə başlayıb. Ümumiyyətlə, qış idmanı növləri üzrə artıq maddi-texniki baza yaradılıb. Şahdağda, Qəbələdə bu sahənin inkişafı üçün müəyyən infrastruktur var. Qış idman növləri texniki növlər olduğundan müəyyən işlər görməyə ehtiyac duyulur. Məsələn, trampilindən tulllanma, xizək idmanı üçün xüsusi qurğular lazımdır. Hazırda bu sahədə işlər görülür və ümid edirik ki, gələn olimpiadada Azərbaycan daha çox idmançı ilə təmsil olunacaq.

***- XXIII Qış Olimpiadasının ölkənin aparıcı idman televiziya kanalları tərəfindən birbaşa yayımı qış idman növlərinin təbliğinə öz təsirini göstərəcəkmi?***

- Azərbaycanda qış idman növlərinin inkişafını təmin etmək üçün onun əhali arasında populyarlığını artırmaq, təbliğini gücləndirmək mühüm şərtlərdəndir.

***- Çingiz müəllim, Pxençxan-2018 Olimpiadası nələrlə yadda qalacaq?***

- Bu olimpiada başlamamışdan əvvəl gündəmə dopinq qalmaqalı ilə daxil oldu. Belə ki, Rusiyanın olimpiadadan kənarlaşdırılması və onların yarışlarda neytral bayraq altında təmsil olunmaları Pxençxan-2018 Olimpiadasının gərgin keçəcəyindən xəbər verir. Bundan başqa, Koreya Xalq Demokratik Respublikasının (KXDR) yarışlarda iştirak etməsi də məsələnin bir tərəfidir. Bu baxımdan televiziya kanalları yayım zamanı diqqətli olmalı, səhvlərə yol verməməlidir. Biz ədalətli mövqeyimizi qoruyub saxlamalıyıq.

***Səadət Hakıyeva***

## Atletika



### Antipov memorialına yekun vurulub

Əməkdar Məşqçi Aleksandr Antipovun xatirəsinə həsr olunmuş atletika üzrə X beynəlxalq memorialı keçirilib. Respublika Olimpiya Mərkəzində keçirilən yarışda Azərbaycan, Rusiya və Gürcüstanı təmsil edən 50-dək idmançı iştirak edib. Turnirdə 1999-cu il təvəllüdlü və daha kiçikyaşlı oğlanlar və qızlar uzununa, üçtəkanla və yakut tullanmalarında mübarizə aparıblar. Turnirin sonuncu günündə yakut tullanmaları üzrə qaliblər müəyyənləşib. “Kıllı” növü üzrə yarışda qadınların mübarizəsində Səbinə Zralova, kişilər arasında isə Səid Nəcəfzadə fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. “İstanqa” növündə qadınların mübarizəsində Azərbaycan idmançısı Səbinə Zralova birinci olub. Kişilərin yarışında isə Rüstəm Məmmədov fərqlənib.

“Kuobax” yarışlarında Fəxriyyə Tağızadə və yakut atleti Dmitri Dmitriyev rəqiblərini üstələyərək birinci yeri tutublar.

Üçnövçülükdə isə Səbinə Zralova və Səid Nəcəfzadə birinci pillədə qərarlaşıblar.

### Əməkdaşlıq haqqında memorandum imzalanıb



Dövlət Sərhəd Xidməti ilə Azərbaycan Milli Antidopinq Agentliyi arasında (AMADA) əməkdaşlıq haqqında memorandum imzalanıb.

Dövlət Sərhəd Xidmətində Agentliyin heyəti ilə görüş keçirilib.

Görüşdə ölkə ərazisinə dövlət sərhədindən dopinq vasitələrinin qanunsuz keçirilməsi və antidopinq qayda pozuntusu məsələləri müzakirə edilib, təmiz idmanın inkişafı üçün iki qurum arasında sıx əməkdaşlığın həyata keçiriləcəyi qeyd olunub.

Əməkdaşlıq çərçivəsində antidopinq qaydalarına əsasən, barəsində araşdırmalar aparılan idmançılar və idmançılara dəstək heyəti, onların ölkəyə giriş-çıxışı haqqında və digər məsələlərlə əlaqədar məlumat mübadiləsinin aparılması razılaşdırılıb.

## Xəbərlər

### Soçidə 6 medal qazanıldı

Rusiyanın Soçi şəhərində keçirilən karate üzrə yeniyetmələr arasında qitə çempionatına yekun vurulub. 44 ölkədən 956 idmançının iştirak etdiyi yarışda Azərbaycan karateçiləri də qüvvələrini sınayıblar. Təmsilçilərimiz qitə çempionatında 4 qızıl, 1 gümüş və 1 bürünc medal qazanaraq tarixi nəticə göstəriblər.

Yeniyetmələrdən ibarət karate üzrə milli komandamız Rusiyanın Soçi şəhərində qitə çempionatının ilk günündə iki qızıl medal qazanıb. Təmsilçilərimizdən Tale Yaqubov (63 kq) və Polina Hurenko (47 kq) Avropa çempionu olublar. Çempionatının ikinci günündə 16-18 yaşlı gənclər üzrə seçmə komandanın üzvü Hümmət Baxşəliyev (-61 kq) qızıl medal qazanıb. Daha bir idmançımız isə çempionluğunu son saniyədə əldən verib. Final görüşündə məğlub olan Mədinə Sadıqova gümüş medala sahib çıxıb.

Turnirin son günündə 21 yaşınadək gənclərin yarışında mübarizə aparan Hüseyn Əliyev (-67 kq) qitə çempionu adına layiq görülüb. Digər təmsilçimiz Murad Hacızadə (+84 kq) isə ardıcıl ikinci dəfə Avropa çempionatının bürünc medalını qazanıb.

Beləliklə komandamız bu nəticə ilə Avropa çempionatında 5-ci yeri tutub.

### Yeniyetmələr arasında Liqa oyunları keçirilir

Fevralın 3-də stolüstü tennis üzrə yeniyetmələr arasında Liqa oyunlarına start verilib. Komanda xarakteri daşıyan yarışlar yüksək və standart liqadan ibarətdir. Yüksək liqada 6 oğlan, 6 qız, Standart liqada isə 11 oğlan və 7 qız komandası iştitak edir. Liqa yarışları aprel ayına kimi davam edəcək.

Qeyd edək ki, Liqa yarışları pilot layihə olaraq Bakı və Sumqayıt şəhərlərini əhatə edir. Yeniyetmələrin növbəti liqa oyunlarının bütün rayonları əhatə etməsi nəzərdə tutulub.

## Şahmat

### Zəka sahiblərimiz “Fajr Sabalan Cup” turnirində

İranın Mazandaran ostanında 26-cı “Fajr Sabalan Cup” turniri start götürüb. Turnirin “A” qrupunda 14 ölkədən 81 şahmatçı, o cümlədən 12 qrossmeyster mübarizə aparır. Masters turnirində Azərbaycan idmanının şərəfini reytinq cədvəlində 11-ci yerdə olan beynəlxalq qrossmeyster Azər Mirzəyev qoruyur. Turnirin reytinq-favoriti ukraynalı Yuri Kuzubovdur. “B” turnirində 14 ölkədən 150 şahmatçı yarışır. Azərbaycanı 14 yaşlı ustalığa namizəd Mələk İsmayıl təmsil edir. İsveçrə sistemi üzrə keçirilən turnir 11 turdan ibarət olacaq.

## Formula-1

### Bakıda “Öz karyeranı qur!” mövzusunda Forum keçirilib

(əvvəli 1-ci səhifədə)

Nazir Azad Rəhimov çıxışında Azərbaycanda idmanın inkişafına göstərilən dövlət qayğısından, ölkəmizin ev sahibliyi etdiyi irimiqyaslı idman tədbirlərindən danışıb, bu yarışlarda könüllülərin fəaliyyətini yüksək




qiymətləndirib. Bu gün Azərbaycanın, o cümlədən ölkə iqtisadiyyatının sürətlə inkişaf etdiyini vurğulayan nazir bildirib ki, bu prosesdə gənc və istedadlı kadrlara böyük ehtiyac var. “Qara qızılın insan kapitalına” çevrilməsi istiqamətində respublikamızda uğurlu addımlar atılır, gənclər üçün əlverişli şəraitin yaradılması baxımından mühüm işlər görülür. “Bakı Şəhər Halqası” Əməliyyat Şirkəti də gənclərə təcrübə qazanmaq üçün hər cür şərait yaradır. Bu gün gənclər bilirlər ki, təhsil və təcrübə olmadan istədikləri karyeranı qura bilməzlər.

Azad Rəhimov Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını vurğulayaraq deyib: “Ölkəmizdə birinci Avropa Oyunları, 42-ci Ümumdünya Şahmat Olimpiadası, IV İslam Həmrəyliyi Oyunları yüksək səviyyədə təşkil olunub. Bu yarışların təşkilində könüllülərin əməyindən geniş istifadə edilib. Könüllülərin inkişafı sahəsində ölkəmizdə uğurlu layihələr həyata keçirilir. Ötən il beş könüllü Formula-1 İtaliya Qran-Prisini canlı izləyiblər”.

Səfir Robert Sekuta Azərbaycanda könüllülük hərəkatının sürətli inkişafından danışaraq, ölkəmizdə bu istiqamətdə görülən işləri yüksək qiymətləndirib. “Bakı Şəhər Halqası” Əməliyyat Şirkəti tərəfindən hazırlıq işlərinə cəlb olunan könüllülərin qazandıqları təcrübənin onların inkişafı üçün yeni imkanlar açacağını vurğulayan səfir Azərbaycanın gündən-günə sürətlə tərəqqi etdiyini diqqətə çatdırıb: “Gənclərlə əməkdaşlıq, onların ideya və təşəbbüslərinin reallaşdırılmasına kömək etmək, eləcə də Azərbaycan və ABŞ gənclərinin inteqrasiyası bizim üçün vacib məsələlərdən biridir. Bu, ABŞ ilə Azərbaycanın həmin sahədə necə əməkdaşlıq edə biləcəyini göstərir”.

Təhsil nazirinin müavini Firudin Qurbanov, “BP-Azerbaijan” şirkətinin insan resursları üzrə vitse-prezidenti Leyla Novruzova, Milli Məclisin gənclər və idman komitəsinin sədri Fuad Muradov, BŞH-nin marketinq və kommunikasiya şöbəsinin rəhbəri, Nigar Arpadarai çıxışlarında gələcək karyeranın qurulmasında təhsilin mühüm amil olduğunu, məqsədə çatmaq üçün dünyagörüşünün artırılmasının vacibliyini və könüllülük hərəkatının gənclərin formalaşmasında əhəmiyyətli rolundan danışıblar.

Sonda gənclərin sualları cavablandırılıb.

### Azərbaycan Qran Prisinin turnir cədvəli açıqlanıb

“Formula One Group” (FOM) 2018-ci il mövsümündə Formula 1 yarışlarının turnir cədvəlini təsdiq edib.

Ötən illərin cədvəli ilə müqayisədə iki əhəmiyyətli dəyişiklik edilib. Əvvələn, bütün yürüşlər saatın tamamından 10 dəqiqə sonra start götürəcək. “Liberty Media”da hesab edirlər ki, bu 10 dəqiqə, o cümlədən yayımın formatında edilən dəyişikliklər hesabına yarışa marağı artırmaqda teleşirkətlərə kömək edəcək.

İkincisi, Avropa mərhələ yarışlarının vaxtı həmişəki vaxtdan 1 saat sonraya keçirilib. Braziliya yürüşü də adi vaxtından bir saat sonra start götürəcək.

Digər cüzi dəyişikliklər imkan verəcək ki, yürüşlər başqa iri idman hadisələri, o cümlədən futbol üzrə dünya çempionatı ilə bir vaxta düşməsin və Qran Pri promoutorlarının istəkləri nəzərə alınsın.

Qeyd edək ki, Azərbaycan Qran Prisi aprelin 27-29-da keçiriləcək. Birinci sessiya yerli vaxtla 13:00-14:30-da, ikinci sessiya 17:00-18:30-da, üçüncü sessiya 14:00-15:00-da, təsnifat 17:00-18:00-da, yürüş 16:10-da nəzərdə tutulub.

### Dənizkənarı Milli Parkda “Biz könüllülərimizi sevirik” adlı tədbir təşkil edilib

Fevralın 2-də Azərbaycan Gəncləri Günü münasibətilə Dənizkənarı Milli Parkda Formula-1 yarışlarının Azərbaycandakı təşkilatçısı “Bakı Şəhər Halqası” Əməliyyat Şirkəti (BŞH) tərəfindən könüllülərlə bağlı tədbir keçirilib.

Tədbir gənclərə dəstək məqsədilə “Biz könüllülərimizi sevirik” devizi altında təşkil olunub.

BŞH-nin könüllülər üzrə koordinatoru Tural Hümbətov könüllülərin artıq üçüncü ildir Formula-1 yarışlarının təşkilinə cəlb olunduqlarını vurğulayıb. Bildirib ki, könüllülər kütləvi idman tədbirlərinin təşkilində əvəzsiz rol oynayırlar. Mötəbər yarışları könüllülərin dəstəyi olmadan təşkil etmək mümkün deyil. Sevindirici haldır ki, könüllülərimiz Azərbaycanda keçirilən mötəbər beynəlxalq tədbir və yarışların təşkilində fəal iştirak edirlər.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın könüllülərin fəaliyyətini daim diqqət mərkəzində saxladıqlarını, onların xidmətlərini yüksək qiymətləndirdiklərini məmnunluqla qeyd edən Tural Hümbətov deyib: “Biz də Formula-1 Azərbaycan Qran-Prisinin təşkilində yaxından iştirak edən könüllülərimizə təşəkkürümüzü bildirmək məqsədilə bu instalyasiyanı təşkil etmişik. İnstalyasiyanı paytaxt sakinlərinin və turistlərin ən çox üz tutduqları məkanda təşkil etməyimiz könüllülərə olan minnətdarlığımızın göstəricisidir”.

Bu il də mötəbər yarışın təşkilinə üç min könüllünün cəlb olunacağını deyən BŞH nümayəndəsi ötən il Formula-1 üzrə dünya çempionatının ən maraqlı Qran-Prisinin Bakı mərhələsi olduğunu məmnunluqla qeyd edərək, bu uğurda könüllülərin xidmətlərini xüsusi vurğulayıb.

## “Neftçi idman klubu” İB

### Boks

Respublika Boks Mərkəzində ölkə çempionatına yekun vurulub. Kişilər arasında təşkil olunan və 39 komandanın iştirak etdiyi yarışda dəri əlcək ustaları 10 çəki dərəcəsi üzrə qüvvələrini sınayıblar.

Klubun çempionatda mübarizə aparan boksçularından Niyaməddin Allahverdiyev mükafatçılar sırasında yer alıb. 60 kq çəkidə çıxış edən idmançı Azərbaycan çempionatının bürünc medalına yiyələnib.

### Güləş

Hövsan Olimpiya İdman Kompleksində yeniyetmələr arasında yunan-Roma güləşi üzrə Bakı birinciliyi keçirilib. İlk 5 yeri tutan güləşçilərə respublika birinciliyində iştirak etmək hüququ qazandıran yarışda 300-ə yaxın idmançı çempionluq uğrunda mübarizə aparıb.

“Neftçi İdman Klubu”nun yeniyetmə pəhləvanları 2-si qızıl, 1-i gümüş və 4-ü bürünc olmaqla 7 medala sahib olublar. Təmsilçilərimizdən Allahverdi Əliyev (71 kq) və Qabil Əhmədov (80 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Hüseyn Qəribov (48 kq) gümüş, Xanhüseyn Abışov (55 kq), Xasay Həsənli, Elcan Məmmədov (hər ikisi 65 kq) və Elton Əzimli (80 kq) isə bürünc medala layiq görülüblər.

Qeyd edək ki, paytaxt birinciliyində klub komanda hesabında ikinci yeri tutub.

### Cüdo

Beynəlxalq Cüdo Federasiyası yeni reytinq cədvəlini açıqlayıb.

Siyahını “Neftçi İdman Klubu”nun yetirmələri üçün uğurlu hesab etmək olar. Belə ki, cüdoçularımızın hamısı mövqeyini qoruyub və onlardan doqquzu ilk iyirmilikdə yer alıb. Rüstəm Orucov (73 kq) yenə 3-cü, Hidayət Heydərov (73 kq) və Elxan Məmmədov (100 kq) 4-cü, Elmar Qasımov (100 kq) 6-cı, Orxan Səfərov (60 kq) 7-ci, Məmmədəli Mehdiyev (90 kq) 11-ci, Nicat Şıxəlizadə (66 kq) 14-cü, Tural Səfquliyev (90 kq) 17-ci pillədə qərarlaşıb. Xanım cüdoçular arasında isə İrina Kindzerska (+78 kq) 7-ci sırada yer alıb.




***“Neftçi İdman Klubu” İctimai Birliyinin mətbuat xidməti***

Yubiley - 60

# "Heç vaxt həyatımdan şikayətlənməmişəm"

İnsan həyata gəldiyi və ağlı kəsən gündən etibarən yüksəlməyi, zirvəyə çatmağı arzu edir. Bəzən həmin zirvəyə qədər gedən yol asan, bəzən də çətin olur. Çətinliklər insanı daha mübariz və əzmli edir, onu həyatın kəşməkeşli yollarında büdrəməyə qoymur. Müsahibimiz, ömrünün xeyli hissəsini idman sahəsinə həsr edən yubilyar Mirzə Orucov da zirvəyə gedən yolda çətinlikləri dəf edərək irəliləyən insanlardandır.



Ölkəmizdə digər idman növləri ilə yanaşı, badminton növünün də inkişafı istiqamətində müəyyən işlər görülür. Vaxtilə populyar idman növü olan badminton, bir müddət durğunluq dövrünü yaşadı. 2015-ci ildən sonra federasiyada bir sıra dəyişikliklər baş verdi. Bu idman növünün kütləviliyinə və inkişafına yol açıldı.

Müxtəlif zamanlarda Azərbaycanda badminton idman növünün inkişafında xidmətləri olan insanlardan biri də Mirzə Orucovdur. Vaxtilə Badminton Federasiyasının baş katibi və Oğuz Olimpiya İdman Kompleksinin direktoru vəzifəsində çalışan Mirzə müəllim hazırda Azərbaycan Badminton Federasiyasının vitse-prezidenti vəzifəsini icra edir. Buyaxınlarda Mirzə Orucov 60 illik yubileyini qeyd edəcək. Bununla əlaqədar olaraq Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi, Əməkdar məşqçi Mirzə Orucovla redaksiyamızda görüşdük. Müsahibimizlə söhbətimizdə onun 60 illik həyat fəaliyyətindən, badmintonun ölkəmizdə inkişafından və bu növün gələcək perspektivlərindən danışdıq.

***- Geriyə dönüb 60 ilə nəzər saldıqda nələri dəyişmək istəyərdiniz?***

- Həqiqətən də, illərin necə keçdiyini hiss etmək olmur. Bu illər ərzində acılı-şirinli günlərim çox olub. Lakin heç vaxt həyatımdan şikayətlənməmişəm. Keçmişimə dönüb nəzər yetirəndə çox şeyləri görürəm. Əvvəlcə, gəncliyim gözümün önünə gəlir. Kaş ki, həmin illər geriyə qayıdaydı. Bir neçə arzum var idi ki, onları həyata keçirmək istəyərdim.

***- Mirzə müəllim, Sizi badmintona bağlayan nə olub?***

- 1965-ci ildən badmintonla məşğul olmağa başlamışam. Badmintona maraq böyük qardaşım Şahindən keçib. O, məndən əvvəl bu idman növü ilə məşğul olurdu. Mən də onunla məşqlərə gedirdim. Onu da qeyd edim ki, qardaşım da SSRİ idman ustasıdır. 1975-ci ildə Qorki şəhərində badminton üzrə keçirilən SSRİ birinciliyininin qoşa yarışlarında ikinci yeri tutdum. 1976-cı ildə Belarusda keçirilən SSRİ birinciliyində mütləq çempion adını qazandım. Həm fərdi, həm qoşa, həm də qarışıq-qoşa yarışlarında birinci yeri tutdum. Növbəti illərdə SSRİ idman ustası normasını yerinə yetirdim və yığma komandanın heyətinə daxil oldum. 1983-cü ildə Belarusun Mogilyov şəhərində təşkil olunan "Spartak" Cəmiyyətlər



Şurasının çempionatında qoşa yarışlarda birinci oldum. 1988-ci ildə beynəlxalq turnirdə Nərgiz Mehdiyeva ilə birlikdə qarışıq qoşa yarışlarında qalib gəldim. 1991-ci ildə İranın Zəncan şəhərində təşkil olunan beynəlxalq turnirdə Ceyhun Məmmədəliyevlə birlikdə qoşa yarışlarda üçüncü yeri tutdum. Beynəlxalq yarışlarla yanaşı ölkədaxili yarışlarda da uğurla çıxış edərək 20 dəfədən çox respublika çempionu olmuşam. 1996-cı ildə Badminton Federasiyasında dəyişikliklər oldu. Kamal Abdullayev Badminton Federasiyasının prezidenti seçildi. 2008-ci ildə federasiyanın baş katibi seçildim. 2008-ci ildən 2014-cü ilə kimi Oğuz Olimpiya İdman Kompleksinin müdiri vəzifəsində fəaliyyət göstərmişəm. Həmin kompleksdə Olimpiya idman növləri də inkişaf etdirilirdi. Kompleksdə, demək olar ki, hər cür şərait var idi.

***- Ailənizdə Sizdən başqa badmintonla məşğul olan varmı?***

- Ailədə 9 qardaş, 2 bacı olmuşuq. Anamız ticarətlə məşğul idi. Atam isə baş həkim işləyib. Böyük ailəmiz olub. Qeyd etdiyimiz böyük qardaşım Şahin badmintonla məşğul olub. Digər qardaşlarım isə müxtəlif peşənin sahibi oldular. Mən isə badmintonu seçdim. Yadıma gəlir, hətta 1980-cı illərdə qardaşlarımla videomaqnitofonlar icarəyə verirdik. Həmin dövrdə hələ çox adamda videomaqnitofon yox idi. Bir sözlə, ailəni dolandırmağa çalışırdıq. Mehriban olmuşuq, həmişə bir-birimizə kömək etmişik.

***- Necə düşünürsünüz, badminton idman növündə davamlı nailiyyətlərin əldə olunması üçün hansı işlər görmək lazımdır?***

- Qarşımızda böyük məqsədlərimiz var. Gənc idmançılarımızdan 2-si Danimarkada məşq keçir. İnanıram ki, həmin idmançılar orada uzunmüddətli qalaraq, bu idman növünün sirlərinə peşəkar səviyyədə yiyələnəcəklər. Federasiya tərəfindən komandaya Ukraynadan məşqçi dəvət olunub. Yeni mütəxəssis hazırda gənclərlə məşğul olur. Bundan başqa komandaya İndoneziyadan iki legioner idmançı gətirilib. Bundan başqa hazırda universitetlər arasında badminton üzrə çempionatlar keçirilir. Yarışlarda 8 ali təhsil müəssisəsi iştirak edir. Çempionata may ayında yekun vurulacaq. Yarışlar iki qrup üzrə keçirilir. Hər qrupda 4 komanda iştirak edir. Yarışın qaydalarına əsasən universitetlər arasında iki görüş keçirilir.

***- Badminton idman növü kifayət qədər faydalı idman növüdür. Bu idman növünün kütləviliyinin artırılması üçün hansı işlər görülür?***

- Bir neçə ay bundan əvvəl 30-35 yaşlı idmançıları və məşqçiləri regionlara ezam etdik. Tovuz, Xaçmaz, Sumqayıt və Gəncədə badminton bölmələri yarandı. Həmin bölmələrdə yeniyetmə və gənclərə bu növün sirləri aşılanır. Artıq, demək olar ki, yeni yaradılan bölmələrdə inkişaf var. İnanırıq ki, gələcəkdə bu idman növü daha da kütləvilik qazanacaq.

***- Kütləvilikdən söz düşmüşkən, I Avropa Oyunlarından sonra badmintona maraq artdımı?***

- Bəli. Digər idman növləri kimi, badmintona da maraq artdı. Avropa Oyunlarına kimi ölkədə badminton üçün müasir infrastruktur yox idi. Oyunlar üçün meydançalar, torlar, hakim qüllələri yaradıldı. Bunlar olduqdan sonra badmintonu peşəkar səviyyədə inkişaf etdirə, gələcəkdə müxtəlif yarışlar keçirə bilərik. Bilirsiniz, istənilən idman növünün kütləviliyində və inkişafında təbliğat ön planda dayanır. I Avropa Oyunları da ölkəmizdə idman növlərinin təbliğatında mühüm rol oynadı. Gələcəkdə ölkəmizdə badminton üzrə beynəlxalq yarış təşkil etməyi planlaşdırırıq. Bu barədə Avropa Badminton Federasiyası ilə danışıqlar gedir. Bizim ən birinci məqsədimiz odur ki, bu il paytaxtımızda gənclər arasında beynəlxalq turnir təşkil edək. Bundan başqa veteranlar arasında da badminton üzrə beynəlxalq turnir təşkil etmək əsas planlarımızdan biridir. Fikrimcə, ölkəmizdə belə yarışların təşkil olunması badmintonun kütləviliyinin artmasında və inkişafında böyük rol oynayacaq.

***- Bir müddət əvvəl badmintonun məktəb proqramlarına daxil olması mövzusu gündəmə gəlmişdi. Bu məsələ nə yerdə qaldı?***

- Düzü, bu, hələ də sual olaraq qalıb. Hələlik, heç bir dəqiq məlumat yoxdur.

***- İstərdik, bazalarla bağlı məlumat verəsiniz.***

- Komandalarımız əvvəllər Bakı Slavyan Universitetinin idman zalında məşq edirdi. Lakin hazırkı bazamız Azərbaycan Texniki Universitetin idman sarayıdır.

*Azər Əlizadə*



## İdman mərkəzlərində

# "Alpaqut türkçülüyü, tolerantlığı, ədaləti özündə birləşdirən döyüş sənətidir"

Gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam böyüməsi günümüzün vacib məsələlərindəndir. İdman insanın fiziki və mənəvi cəhətdən inkişafında, onun sağlam böyüməsində son dərəcə vacib rol oynayır. Fiziki və mənəvi saflıq həm də vətənpərvər ruhda böyümə, xalqına, millətinə, vətəninə sadiqlik deməkdir. Dövlətimiz tərəfindən gənc nəslin fiziki sağlamlığına, mənəvi inkişafına xidmət edən bir sıra mühüm qərarlar qəbul edir, bu sahədə məqsədyönlü fəaliyyət göstərir. Ölkəmizdə bütün sahələr kimi, idman və Olimpiya Hərəkatı yüksək sürətli inkişaf yolu keçib. Bu gün respublikamızda Olimpiya idman növləri ilə yanaşı, qeyri-olimpiya idman növlərinə də xüsusi diqqət və qayğı ilə yanaşılır. Qeyri-Olimpiya idman növləri sırasında xüsusilə döyüş növləri ölkəmizdə böyük populyarlıq qazanıb.



Azərbaycanda yeni yaradılan idman növlərindən biri də qədim türk döyüş sənətlərindən götürülmüş Turan (milli) döyüş sənəti olan alpaqutdur. 2014-cü ildə yaradılan Azərbaycan Alpaqut Federasiyası qısa müddət ərzində bu sahədə böyük işlər görüb, yüksək nailiyyətlər qazanıb. Bugünlərdə Azərbaycan Alpaqut Federasiyasının prezidenti Aqil Acalovla görüşərək bu idman növünün təbliği və inkişafı ilə bağlı həyata keçirilən tədbirlər barədə söhbət açdıq.

***- Aqil müəllim, ilk növbədə rəhbəri olduğunuz Azərbaycan Alpaqut Federasiyasının yaranması ilə bağlı oxucularımıza məlumat verərdiniz.***

- Bildiyiniz kimi, dünyada hər bir ölkənin özünəməxsus döyüş sənətləri var. Alpaqut döyüş sənəti Turan coğrafiyasında yaşayan türk soylu xalqlara türklərə məxsus döyüş sənətidir. Alpaqut sözünün mənası- "Alp" döyüşçü, "Qut" isə kutsal yəni müqəddəs döyüşçü, təkbaşına döyüşən deməkdir. Göytürk xaqanlığı dövründə xüsusi istedada, döyüş qabiliyyətinə malik gənclər seçilərək onlardan xüsusi təyinatlı döyüşçülər hazırlayardılar. Bu gənclər əlbəyaxa döyüşü, qılınc oynatmağı, at çapmağı bacaran xüsusi döyüşçülər olurdular. Müharibələr zamanı bu cür az sayda döyüşçülər qarşı tərəfin düşərgəsinə gecə hücum edər, onları səhərə qədər oyaq saxlayar, döyüşərək yorardılar. Səhər qoşunlar üzbəüz gələndə, yorğun olan düşmən ordusu asanlıqla məğlub olardı. Alpaqutlar şəhid olsalar da, heç vaxt əsir düşməzdilər. Alpaqut türkçülüyü, tolerantlığı ədaləti özündə birləşdirən döyüş sənətidir. Hər bir döyüş sənətinin öz fəlsəfəsi var. Alpaqut yeganə döyüş sənətidir ki, onun fəlsəfəsi inanclara deyil, məhz tanrıçılığa söykənir. Qeyd edim ki, Türk dünyasının ilk ensklopediyası olan "Divani lüğət-it-türk" əsərində də "alpaqut" sözünə rast gəlinir. Qədim türk dilində "alp" igid, bahadır, "kut" isə mübarəklik, kutlamaq mənalarını verir.

Alpaqut döyüş sənətinin yaradıcısı həmyerlimiz kutsan (ustad) Vasif Namazovdur. O, bu idman növünü yaradanadək uzun müddət araşdırmalar aparıb. Bundan sonra Azərbaycanda bu növ üzrə yerli və beynəlxalq federasiyanın yaradılmasına qərar verilib. Dünya və Azərbaycan Alpaqut Federasiyası 2014-cü ildə yaradılıb. Beynəlxalq federasiyaya Atatürk Mərkəzinin direktoru, millət vəkili Nizami Cəfərov rəhbərlik edir. Təşkilatın 1-ci vitse-prezidenti isə millət vəkili Qənirə Paşayevadır.

***- Qısa müddət ərzində fəaliyyət göstərməsinə baxmayaraq federasiya bir sıra uğurlar qazanıb. Az müddətdə buna necə nail olmusunuz?***

- Bizim bir dəsti-xəttimiz var və ondan kənara çıxmırıq: vətənpərvərlik, dövlətçilik. Bu idmanda millilik, vətənpərvərlik, tariximiz, döyüş mədəniyyətimiz, hərb sənətimiz cəmləşib. Azərbaycan müharibə şəraitində olan ölkədir. Gənclərimizin vətənpərvər, döyüşkən ruhda böyüməsi vacib məqamlardandır. Həyata keçirdiyimiz bütün layihələrimiz bu istiqamətə yönəlib. Yeni yaranan federasiya olmağımıza baxmayaraq, qeyri-olimpiya idman növü kimi bu sahədə fəaliyyətimiz zəngindir. Hazırda təkcə Azərbaycanda deyil, dünyanın 24 ölkəsində bu idman növü tədris olunur və federasiyalar fəaliyyət göstərir. Bölgələrdə nümayəndəliklərimiz, filiallarımız var. Tovuz, Qazax, Qarabağ zonası, Bərdə, Ağdam, Ağcabədi, şimal bölgəsi, Quba, Xaçmaz, cənubda Neftçala, Salyan, Lənkəran, Bakı və Bakının rayonları, Binəqədi, Sabunçu, Bakıxanov, Nərimanov və Sumqayıt, Xırdalan şəhərlərində yerli filiallarımız və bölmələrimiz aktiv fəaliyyət göstərməkdədir. 4 ildir yaranmış federasiyanın bu cür uğurlu fəaliyyət göstərməsinə böyük əmək sərf olunub. Əlbəttə ki, burada bir insanın əziyyətindən söhbət gedə bilməz. Fəaliyyətimizdə dövlət dəstəyi ilə yanaşı, vətənpərvər insanların, xeyriyyəçi dostlarımızın, medianın da böyük rolu olub. Federasiyamız müxtəlif vaxtlarda bir sıra mükafatlara layiq görülüb. Yeri gəlmişkən qeyd edim ki, "Olimpnews.az" saytının 2017-ci ilin yekununa əsasən keçirdiyi sorğuda Azərbaycan Alpaqut Federasiyası "Qeyri-olimpiya idman növləri üzrə ilin ən yaxşı federasiyası" nominasiyasına layiq görülüb. Əlbəttə ki, bütün bunlar bizim əməyimizə verilən ən yüksək qiymətdir.



***- İndiyədək federasiya tərəfindən həm respublika, həm də beynəlxalq miqyaslı yarışlar təşkil olunub. Maraqlıdır, bu idman növü üzrə yarışlar hansı qaydalar əsasında keçirilir?***

- Qeyd etdiyim kimi, bu idman növü Kutsan Vasif Namazov tərəfindən yaradılarkən bir sıra mütəxəssislərə müraciət olunub. Qədim türk döyüş sənətləri sintezləşdirilərək, müasir idman, yarış elementləri əlavə olunaraq formalaşdırılıb. Bu idman növündə 4 versiya mövcuddur. Bunlar aypara, batur, cayma və gures sistemləridir. Bir idmançı bir və ya bir neçə versiyada qüvvəsini sınaya bilər. Döyüş xüsusi örtüklü tatami üzərində müxtəlif ölçülü "qurd çevrəsi" və ya "şahin çevrəsi" adlandırılan sahədə keçirilir. İdmançılar bu çevrədən kənara çıxdıqları halda cərimə xalı ilə qiymətləndirilirlər. Müəyyənləşdirilmiş çevrədən kənara 3 dəfə çıxan idmançı məğlubiyyətlə üzləşir. Bu isə qədim türklərin hər zaman yaxın məsafədə döyüşməyə üstünlük vermələri ilə əlaqədardır.

Məlumat üçün bildirim ki, indiyədək bu növ üzrə bir sıra yarışlar təşkil etmişik. Hər il ənənəvi olaraq ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş respublika turniri və Ulu öndərin anım günündə müxtəlif bölgələrdə seminarlar təşkil edilir. Bayramlar və tarixi günlər, eləcə də torpaqlarımızın müdafiəsi uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsinə ənənəvi olaraq yarışlar keçiririk. Bir sıra xalq qəhrəmanlarımız var ki, onları tanıtmaq, təbliğat məqsədilə onların xatirəsinə turnirlər təşkil edirik. Məşqçilərin ustalıq səviyyəsinin artırılması üçün mütəmadi seminarlar keçiririk. Məsələn, ötən il Azərbaycan kubokunu Şəmkir rayonunda təşkil etdik. Ötən ilin ən mötəbər yarışlarından biri Dünya Alpaqut Federasiyasının təşkilatçılığı ilə keçirilən II Dünya kuboku oldu. Bu yarışda 16 ölkə iştirak edirdi.

***-İctimai sahədəki fəaliyyətiniz idmana gəlişinizdə nə kimi rol oynayıb?***

- Mən 2003-cü ildən ictimai fəaliyyətlə məşğul olmağa başlamışam. Həmişə məktəbdə, universitetdə fəal olmuşam və bu, indiyənə kimi özünü göstərir. Deməli, 2003-2005-ci illərdə xarici ölkələrdə yaşayan azərbaycanlı gənclər üzrə həmrəylik assosiasiyasının koordinasiya şurasının sədri, 2005-ci ildən bu günə qədər Azərbaycan və Gürcüstan gənclərinin həmrəylik assosiasiyasının sədri, 2007-ci ildə dünya azərbaycanlıları konqresi, gənclər təşkilatının sədr müavini, 2009-cu ildə isə sədr vəzifəsinə səsvermə yolu ilə seçilmişəm. 2011-ci ildən əziz dostum beynəlxalq dərəcəli idman ustası Vasif Namazovun dəvəti ilə Sayokan federasiyasına dəvət olundum və 1-ci vitse-prezident vəzifəsinə təyin olundum.

2013-cü ilin yanvar ayından idarə heyətinin qərarı ilə Sayokan federasiyanın prezidenti seçildim. 2013-cü ildə "Gələcəyə Baxış" adlı ictimai ümumrespublika hərəkatının təsisçilərindən biri, həm də həmsədri olmuşam. 2014-cü ildə isə yeni yaradılan Azərbaycan Alpaqut Federasiyasının prezidenti kimi fəaliyyət göstərirəm.

*Aysel Sultanova*




# "Ağ Olimpiada"- soyuq qışın isti hərarəti

*Qış Olimpiya Oyunlarının azarkeşləri üçün maraqlı olduğunu nəzərə alaraq, Şamonidən Pxençxana qədər davam edən tarixin diqqət çəkən məqamlarını diqqətinizə çatdırırıq.*

*(əvvəli ötən sayımızda)*

## VI Qış Olimpiya Oyunları 1952 (Oslo) 14-25 fevral

VI Qış Olimpiya Oyunlarında 30 ölkədən 694 idmançı iştirak edirdi.

### Proqram

Olimpiadanın proqramında yenidən dəyişikliklər edildi. Qadınlar ilk dəfə 10 km məsafəyə xizək yarışlarında qüvvələrini sınadılar. Proqramda klassik üçnövçülük üzrə dağ xizəyi yarışları da nümayiş etdirildi.

### Nəticələr

Norveç 104,5 xalla (16 medal - 7 qızıl, 3 gümüş və 6 bürünc) I, ABŞ 77,5 xalla (11 medal - 4 qızıl, 6 gümüş və 1 bürünc) II, Finlandiya 63 xalla (9 medal - 3 qızıl, 4 gümüş və 2 bürünc) III yerə sahib oldu.

Norveç qış idman növlərinin güclü inkişaf etdiyi ölkələrdəndir. Statistik nəticələrə görə, norveçlilər VI Qış Olimpiadasına qədər təşkil edilən 5 olimpiadadan 3-ündə ən yüksək nəticələrə imza atmışdılar. Qış idmanı tarixində özünəməxsus xidmətləri olan Turleyf Hauq, İvar Ballanqrud və Sonya Heni kimi idmançılar məhz Norveçi təmsil edirdilər.

Bütün Norveç əhalisi VI Qış Olimpiya Oyunlarında iştirak edəcək 30 ölkənin nümayəndəsini qarşılamağa hazırlaşırdı. Oyunların məşəl estafeti üçün maraqlı marşrut xətti hazırlanmışdı. Olimpiya məşəlini məşhur norveçli səyyah Fritof Nansenin nəvəsi Egil Nansen alovlandırdı.

### Yarışların çətinliyi məqsədə çatmağa mane olmur

Oslo Olimpiya Oyunlarının qəhrəmanı 20 yaşlı Norveç təmsilçisi Yalmar Andersen oldu. 5000 m məsafəyə yarışlarda İvan Ballanqrudun Olimpiya rekordunu təzələyən Andersen 10.000 m məsafədə yarışlarda da eyni nəticəni göstərdi. O, yarışların favoriti idi. Lakin 1500 m məsafəyə yarışlarda Yalmar Andersenin bəxti gətirmədi. Onu 2 dəqizə 18 saniyə nəticə ilə Villem Van der Vort qabaqladı.

Yarışlardan əvvəl güclü qar yağdı. Yarış yolu birdən-birə ağappaq örtüyə büründü. Sürüşmə ehtimalı get-gedə güclənirdi. Bu da təbii olaraq, idmançıların işini çətinləşdirirdi. Van der Vort həyacandan tempi itirmişdi. Axırıncı dövrədə bəxti gətirən norveçli rəqibini 0, 2 san qabaqlayaraq yarışların qalibi oldu.

### "Mora Nisse" kim idi?

Xizək yarışlarında 80 idmançı yarışırdı. Bundan əvvəlki olimpiadada uğurla çıxış edən İsveç idmançıları bu dəfə məğlubiyyətlə üzləşdilər. Hallqeyr Brendenin göstərdiyi yüksək nəticə (1 saat 1 dəq 34 san) qızıl medalla nəticələndi və o, xizək yarışlarında öz ölkəsinə 20 ildən sonra qızıl medal qazandıran idmançı kimi tarixə düşdü. Brendendən sonra xizək yarışlarındakı qızıl medalları fin idmançıları bölüşdürdülər. 5-ci yeri məşhur İsveç idmançısı "Mora Nisse" ləqəbli Niss Karlson (Mora-xizəyin vətəni, Nisse-əjdaha deməkdir) tutdu.

Mora Nisse 50 km məsafəyə yarışlarda qələbəsinə tam əmin idi. O, nəyin bahasına olursa olsun, ölkəsini medalsız qoymaq istəmirdi. 35 yaşlı idmançı ancaq və ancaq qələbə haqqında düşünürdü. Bu yarışlarda ümidləri doğrulmayan Karlson yalnız 6-cı yerlə kifayətlənləmnəli oldu. Nissenin arzusunda olduğu qızıl medalı Finlandiya idmançısı Veyko Hakulinen əldə etdi.



### Bürünc medal uğrunda mübarizədə

Hokkey turnirində Kanada yığma komandası favoritlik edirdi. II yerin sahibi ABŞ təmsilçiləri oldu. Çexoslovakiya və İsveç Olimpiya yığması eyni xal topladığından III yeri tutan komandanın adı açıqlanmamışdı. Qaydaya görə qalibi müəyyən etmək üçün vurulan və buraxılan şaybaların sayını hesablamaq lazım gəlirdi. Maraqlıdır ki, vurulan şaybaların sayı da eyni (29) idi. Komandaların şaybaya münasibəti mübahisəli məsələni həll etmək üçün axırıncı çıxış yolu idi. Nəhayət, Çexoslovakiya hokkey yığması (2, 61 - 2,53-ə qarşı) VI "Ağ Olimpiada"nın bürünc medalına sahib oldu.

## VII Qış Olimpiya Oyunları 1956 (Kortina de Ampetso) 26-yanvar-5 fevral

VII Qış Olimpiya Oyunlarında 32 ölkədən 821 idmançı iştirak edirdi. Kortina de Ampetso Olimpiadası iştirakçı ölkələrin və idmançıların sayına görə yaddaqalan yarışlardan biri oldu.

### Proqram

Yarışların proqramında bəzi dəyişikliklər edildi. Kişilər arasında keçirilən 18 km məsafəyə konki yarışları proqramdan çıxarıldı. Bunun əvəzinə proqrama 15 və 30 km məsafəyə xizək yarışları daxil edildi. Xizək idmanı üzrə atletlər ilk dəfə 3x5 km məsafəyə estafet yarışlarında qüvvələrini sınadılar.

### Nəticələr

Kortina de Ampetso-1956 Olimpiadasının nəticələrinə görə, mükafatalayiq yerlərə SSRİ, Avstriya və Finlandiya idmançıları layiq görüldülər. Beləliklə, SSRİ yığma komandası 103 xalla I (16 medal-7 qızıl, 3 gümüş və 6 bürünc), Avstriya 66,5 xalla II (14 medal-4 qızıl, 3 gümüş və 4 bürünc), Finlandiya 57 xalla III (7 medal-3 qızıl, 3 gümüş və 1 bürünc) yeri tutdu.

Beynəlxalq Olimpiya Komitəsi tərəfindən VII "Ağ Olimpiada"nın paytaxtının adı açıqlandıqdan dərhal sonra İtaliyanın kurort şəhəri Kortina de Ampetsoda hazırlıq işlərinə start verildi. Açılış mərasiminə qədər dörd mərtəbəli nəhəng stadion tamaşaçıların və idmançıların ixtiyarına verildi. Fiqurlu konkisürmə və hokkey yarışları bu stadionda keçirilirdi. İstifadəyə verilən "İtaliya" tramplini dünyanın ən möhtəşəm idman komplekslərindən sayılırdı.

### SSRİ idmançıları fəal idilər

Qadınlar arasında xizək yarışlarında ilk qızıl medal sovet idmançısı Lyubov Kozurovaya nəsib oldu. 26 yaşlı idmançı bu yarışlarda yüksək nəticələr qazanaraq Oimpiya çempionu adına layiq görüldü.

Sovet idmançıları kişilər arasında keçirilən xizək yarışlarında da fərqləndilər. Fedor Terentev, Pavel Kolçin, Nikolay Anikin və Vladimir Kuzin (4x10 məsafəyə estafet) komanda yarışlarının qalibi oldular.

### Rekordlar bir-birini əvəz edirdi

Konki yarışları yüksək dağ gölü Mizurinədə keçirilirdi. Yarışlar üçün ideal şərait yaradılmışdı. Buzun keyfiyyəti yüksək səviyyədə idi. Bu yarışlarda sovet idmançısı Yevqeni Qrişinin gözəl oyun nümayiş etdirməsi ölkə və dünya mətbuatında geniş şəkildə işıqlandırıldı. Olimpiadadan əvvəl İtaliya birinciliyi uğrunda keçirilən 500 m məsafəyə yarışlarda 40,2 san nəticə göstərən idmançı, VII Qış Olimpiya Oyunlarında da bu məsafəyə yarışlarda eyni nəticəni göstərdi. Xatırlada ki, 1924-1952-ci illər ərzində təşkil olunan konki yarışlarında dünya rekordunu müəyyən etmək heç bir idmançıya nəsib olmamışdı. SSRİ təmsilçisi Yevgeni Qrişin bu səddi keçməyi bacarmışdı. İstedadlı idmançının nailiyyətləri bununla bitmirdi. Belə ki, 1500 m məsafəyə yarışlarda qış Olimpiya Oyunları və konki idmanı tarixində qeyri-adi nəticə qeydə alınmışdı: Qrişin 2.08, 6 san nəticə ilə yeni dünya rekorduna imza atmışdı. Qrişinin nəticəsi növbəti qaçışda digər sovet idmançısı Yuri Mixaylov tərəfindən təkrar olundu. Hər iki idmançı olimpiadanın qızıl medallarını aldılar.

5 000 m məsafəyə yarışların qalibi SSRİ təmsilçisi Boris Şişkov oldu. Sovet idmançıları yalnız 10 000 m məsafəyə yarışlarda uğur qazana bilmədilər. Bu yarışlarda İsveç idmançısı Siqvard Eriksson fərqləndi.

VI Qış Olimpiya oyunlarının qəhramanı adına 19 yaşlı dağ xizəkçisi (Avstriya) Toni Zayler layiq görüldü.

### Kanada yığmasını məğlub edən dünya, Avropa və Olimpiya çempionu kim idi?

Tamaşaçılar SSRİ-Kanada hokkey matçını səbirsizliklə gözləyirdilər. ABŞ yığma komandasına 1:4 hesabı ilə uduzan Kanada SSRİ-Kanada matçına xüsusi səylə hazırlaşırdı. Əgər kanadalılar bu matçda qalib gəlsə, hər üç komandanın (Kanada, ABŞ, SSRİ) hesabında olan xalların sayı bərabərləşirdi. Bu zaman şaybaları saymaq lazım gəlirdi. Kanadalılar qələbə uğrunda inadla mübarizə aparırdılar. İlk dövrədə onlar SSRİ yığma komandasının qapısına 23 ötürmə ilə hücum etdilər. Sovet hokkeyçilərinin hesabında yalnız 10 ötürmə var idi. Kanadalıların güclü hücumlarından müdafiə olunan SSRİ idmançıları komandanın qapıçısı Nikolay Puçkova minnətdar olmalı idilər. Puçkov qapını çox gözəl müdafiə edirdi və komandasını dəfələrlə çətin vəziyyətdən qurtarmışdı. İlk dövrənin sonuna yaxın kanadalıların yorulduğu açıq hiss olunurdu.








İkinci dövrə birincidən də gərgin keçdi. Təcrübəli Kanada idmançılarının təhlükəli zərbələri qarşısında sovet hokkey məktəbinin yetirmələri inadla və var gücləri ilə mübarizə aparırdılar. Gözlənilən an gəlib çatdı: Yuri Krılovun ötürdüyü şayba kanadalıların qapısından keçdi. Hesab 1:0 idi.

Fasilədən istifadə edən Kanada idmançıları, meydançaya buz tökməyi tələb etdilər. Kanada yığma komandası fasilədən sonra oyuna kəskin hücumlarla başladılar. Lakin Kanada hokkeyçilərinin səyləri əbəs idi. Valentin Kuzinin ötürməsi daha bir qolla nəticələndi- 2:0.

Kanada yığma komandasını 2:0 hesabı ilə məğlubiyyətə uğradan SSRİ yığma komandası dünya, Avropa və Olimpiya çempionu tituluna layiq görüldü.

Beləliklə, SSRİ komandası VII Qış Olimpiya Oyunlarında 7 qızıl, 3 gümüş və 6 bürünc medal qazandı.

## VIII Qış Olimpiya Oyunları 1960 (Skvo-Velli) 18-28 fevral

VIII Qış Olimpiya Oyunlarında 30 ölkədən 665 idmançı iştirak edirdi.

### Proqram

Proqramda ilk dəfə biatlon və qadınlar arasında konki yarışları nümayiş etdirildi. Bobsley yarışları proqramdan çıxarıldı.

### Nəticələr

SSRİ yığma komandası 146,5 xalla I (21 medal-7 qızıl, 5 gümüş və 9 bürünc), ABŞ 62 xalla II ( 10 medal-3 qızıl, 4 gümüş və 3 bürünc), İsveç 62 xalla III yeri ( 3 qızıl, 2 gümüş və 2 bürünc) yerə layiq görüldü.

### "Ağ Olimpiada"nın ilk Olimpiya kəndi Uolt Disneyin ssenarisi

Skvo-Velli şəhəri ("Qadınlar vadisi") Kaliforniyada yerləşir. Dəniz səviyyəsindən 1889 metr yüksəklikdə yerləşən vadinin eni 800 metr, uzunluğu isə 3 km-dir.

VIII Qış Olimpiya Oyunlarından əvvəl Skvo-Velli şəhərində 11 min tamaşaçı tutan buz stadionu istifadəyə verildi. Skvo-Velli şəhərində qış Olimpiya Oyunları tarixində ilk dəfə Olimpiya kəndi inşa edildi. Yarışlar elektron-hesablama maşınlarının köməyi ilə idarə olunurdu.

Skvo-Velli Olimpiadası 1960-ci il fevralın 18-də 15 min tamaşaçının iştirakı ilə açıq elan edildi. "Ağ Olimpiada"nın bayram proqramının ssenarisini məşhur ABŞ kinorejissoru Uolt Disney tərəfindən hazırlanmışdı.

### Olimpiadada rəqabət güclü idi

Skvo-Velli Olimpiadasında rəqabət çox güclü idi. Sovet idmançıları uğurlu çıxışları ilə keçən yarışlarda əldə etdikləri qələbələrin təsadüfi olmadığını sübuta yetirdilər. ABŞ təmsilçiləri də gözəl oyun nümayiş etdirdilər. Konkisürmə idman növü üzrə fərdi yarışların qalibləri Devid Cenkins və Keral Heysin dueti qış Olimpiya Oyunlarının ən gözəl mənzərəsi idi. ABŞ yığmasının hokkey turnirində qələbəsi olimpiadanın təqvimində yaddaqalan hadisələrdən biri oldu.

Norveç, İsveç və Finlandiya təmsilçiləri xizək və konki, fransız və avstraliyalılar isə dağ xizəyi yarışlarında yüksək idman ustalığı nümayiş etdirdilər.

### Konki yarışlarının qəhrəmanı

Məşhur sovet idmançısı Yevqeni Qrişinin çıxışı Skvo-Velli Olimpiadasının diqqət mərkəzində idi. Konki idmanı növü üzrə dünyanın ən yaxşı sprinteri sayılan Yuri Qrişin 4 il əvvəl Kortina de Ampetso Olimpiadasında olduğu kimi VII Qış Olimpiya Oyunlarına yeni dünya və Olimpiya rekordlarına imza atmaq niyyətində idi.

500 m məsafəyə yarışlarda köhnə Olimpiya rekordunu təkrarlayan SSRİ təmsilçisi ikinci qızıl medalını 1500 m məsafədə qazandı. Yarışların axırıncı günü Qrişin yenidən start xəttinə çıxdı: təşkilatçılar 500 m məsafəyə dünya rekordçusunu müəyyən etmək üçün əlavə yarışlar keçirməyi qərara almışdılar. Dördqat Olimpiya çempionu Yevqeni Qrişin bu yarışlarda da uğur qazanaraq (39,6 san.) yeni dünya rekorduna imza atdı.

*(ardı 5-ci səhifədə)*






(əvvəli 4-cü səhifədə)

# “Ağ Olimpiada”- soyuq qışın isti hərarəti

### Özünə ad günü hədiyyəsi

Digər sovet idmançısı (stayer) Viktor Kosiçkinin 5000 m məsafəyə yarışlarda start xəttinə çıxması fevralın 25-nə təsadüf edirdi. Həmin gün Kosiçkinin 22 yaşı tamam olurdu. İdmançının bu yarışlarda əldə etdiyi qızıl medal onun həm də özünə ad günü hədiyyəsi idi. İdmançı ertəsi gün 10 000 m məsafəyə yarışlarda isə gümüş medalını qazandı.

### Qalibin şərəfinə

Skvo-Velli şəhərində hər gün səslənən zəng səsləri idmançıları və yarış iştirakçılarını təqdimat mərasiminə çağırırdı. Bundan sonra qalib idmançının şərəfinə təmsil etdiyi ölkənin himni səslənirdi. SSRİ-nin himni gənc idmançı Lidiya Skoblikovanın (Ural) şərəfinə iki dəfə səsləndi. Sovet idmançısı bu olimpiadada iki dəfə - 1500 və 3000 m məsafəyə yarışlarda -Olimpiya çempionu tituluna layiq görülmüşdü. Qadınlar arasında 10 km məsafəyə xizək yarışlarında SSRİ təmsilçiləri fərqlənirdilər. Bu yarışlarda leninqradlı (Sankk-Peterburq) Mariya Qusakova qızıl medala sahib oldu. Ümumiyyətlə, həmin məsafəyə xizək yarışlarında hər üç yeri sovet idmançıları bölüşdürdülər. II yeri Lyubov Baranova, III yeri isə Radya Eroşina tutdular. Amma sovet idmançıları dağ xizəyi və hokkey yarışlarında medalsız qaldılar.

## IX Qış Olimpiya Oyunları 1964 (İnsburk) 29 yanvar- 9 fevral

IX Qış Olimpiya Oyunlarında 36 ölkədən 1091 idmançı təmsil olunurdu. Hindistan, Koreya və Monqolustan ilk dəfə olimpiadada iştirak edirdilər.

### Proqram

Proqrama kirşə idmanı növü və qadınlar arasında xizək yarışları əlavə edilmişdi.

### Nəticələr

IX Qış Olimpiya Oyunlarında SSRİ yığma komandası yenə 1-ci oldu. SSRİ idmançıları 162 xalla 25 medal (11 qızıl, 8 gümüş və 6 bürünc) qazandılar. Norveç 89,5 xalla II (15 medal-3 qızıl, 6 gümüş və 6 bürünc), Avstriya isə 78 xalla III (12 medal -4 qızıl, 5 gümüş və 3 bürünc) yeri tutdu.

### “Ağ Olimpiada”nı təhlükədən qurtaran

Növbəti Qış Olimpiya Oyunlarının keçirilməsi üçün dəniz səviyyəsindən 570 m yüksəkdə yerləşən Tiroiyanın paytaxtı İnsburk şəhəri ideal məkan idi. İnsburk onu güclü küləklərdən qoruyan dağlarla əhatə olunmuşdu. 10 min tamaşaçı tutan və Avropanın ən yaxşı idman saraylarından biri Aysştadion stadionu, idmançı və tamaşaçıların ixtiyarına verilmişdi. Olimpiada ərəfəsində qəfildən başlanan istilər yarışların keçirilməsi üçün təhlükə yaradırdı. Şəhərin özündə və hətta Alp dağlarında belə qarın əriməsi növbəti “Ağ Olimpiada”nın keçirilib, keçirilməməsi məsələsini sual altında qoyurdu. Şəhər hakimiyyətinin əhaliyə müraciətindən sonra hamı bir nəfər kimi yarış keçirilən yollara dağlardan səbətlə qar daşımağa başladı. Bax, beləcə insanların həmrəyliyi “Ağ Olimpiada” nı təhlükədən qurtarmış oldu.



### Olimpiada yüksək səviyyədə təşkil edilmişdi

İnsburk Qış Olimpiya Oyunları müvəffəqiyyətlə keçdi. Yarışlar yüksək səviyyədə təşkil olunmuşdu. Yarış iştirakçıları və olimpiadanın qonaqları şəhər əhalisinin qonaqpərvərliyindən razı idi. Oyunların açıq elan edildiyi gün, yanvarın 29-da, həm də konkisürmə yarışlarının qalibləri müəyyən edilirdi. I yeri sovet, II yeri alman, III yeri isə avstriyalı fiqurlu konkisürənlər tutdular.

SSRİ təmsilçiləri Belousova və Protopopov fiqurlu konkisürmə yarışlarında buz üstünə Raxmaninovun fortepiano üçün konsertinin lirik melodiyasının müşayəti ilə çıxdılar. Buz üstündə klassik oyun nümayiş etdirən idmançıların çıxışları son dərəcə maraqlı idi və əvvəlki çıxışlara bənzəmirdi. Belousova və Protopopov kompozisiyası arbitrlər tərəfindən yüksək qiymətləndirildi və cütlük olimpiadanın qızıl medalına layiq görüldü.

### “Skoblikovanın Olimpiadası”

Bütün dünya mətbuatı bu Olimpiadanı “Skoblikovanın Olimpiadası” adlandırırdı. 24 yaşlı Ural idmançısı Oyunlarda ona qədər və ondan sonra heç kəsin müvəffəq ola bilmədiyi nailiyyətlər qazandı. Dörd dəfə buz üstünə çıxan idmançı hər dəfə qızıl medala sahib oldu. Halbuki Klas Tunsberq, İvar Ballanqrud və Yalmar Andersen kimi mahir idmançılar qış Olimpiya Oyunları tarixində yalnız üç medalla kifayətlənə bilmişdilər. Hər dörd məsafədə uğurla yarışan Skoblikova, qeyri-adi gücə və nadir istedada malik olduğunu tamaşaçılar qarşısında yüksək peşəkarlıqla nümayiş etdirdi.

### Uğur onlarla idi

Lidiyanın yerlisi 24 yaşlı Klavdiya Boyarskix (Sverdlovsk) əldə etdiyi nailiyyətlərə görə heç də ondan geri qalmırdı. İdmançı 5 və 10 km, eləcə də 3x5 km məsafəyə estafet yarışlarında fərqlənərək 2 qızıl medala layiq görüldü.

Biatlon yarışlarında üçqat Olimpya çempionu Vladimir Melanin (SSRİ) fərqləndi.

İnsburk Oyunlarında SSRİ hokkey komandasını çətin sınaq gözləyirdi. Yığmanın tərkibində fəaliyyət göstərən oyunçulardan yalnız dördü indiyədək Olimpiya turnirlərində iştirak etmişdilər. Komanda həmrəyliyi nümayiş etdirən SSRİ yığması Çexoslovakiya və İsveç hokkeyçilərini məğlub etməyi bacardı və finalda Kanada ilə qarşı-qarşıya gəldi. Final qarşılaşması birincinin xeyrinə 2:1 hesabı ilə qurtardı. Sovet hokkey məktəbinin yetirmələri Olimpiya çempionu tituluna layiq görüldülər.

### Norveçlilər sovet idmançılarına güzəştə getdilər

Bundan əvvəlki hər iki Olimpiya Oyunlarında məğlubiyyətə uğrayan Norveç idmançıları, qeyri-rəsmi komanda hesabında yalnız sovet idmançılarına güzəştə getdilər. 5000 m məsafəyə yarışlarda Knut Yuxannesen və ikinövçülük üzrə xizək yarışlarının qalibi Tormud Knutsen qızıl medallara sahib oldular.

### İdmançı bacılar rekord sayda medal qazandılar

Dağ xizəyi yarışlarında Avstriya idmançıları Yeqon Simmerman və ən gənc idmançı Krist Haos, eləcə də Yozef Ştiqler fərqləndilər. Lakin yarışların əsil qəhramanları fransalı Gokçel soyadlı bacılar idi. Mariel dünya çempionu adını hələ 16 yaşında ikən almışdı. Ondan 1 yaş böyük olan Kristinin isə indiyədək heç bir idman nailiyyəti yox idi. İdmançı bacılar İnsburk Olimpiadasında 4 qızıl və 4 gümüş medala sahib oldular.

## X Qış Olimpiya Oyunları 1968 (Qrenobl) 6-18 fevral

X Qış Olimpiya Oyunlarında 37 ölkədən 1158 idmançı qüvvəsini sınayırdı.

### Proqram

Proqramda 35 sayda müxtəlif idman yarışları nümayiş etdirilirdi. Biatlonçular estafet yarışlarında da mübarizə aparırdılar.

### Nəticələr

Norveç 103 xalla (14 medal-6 qızıl, 6 gümüş və 2 bürünc) I, SSRİ yığma komandası 92 xalla (13 medal- 5 qızıl, 5 gümüş və 3 bürünc) II, Avstriya 79 xalla (11 medal- 3 qızıl, 4 gümüş və 4 bürünc) III yerə layiq görüldü.

### Qarda al-qırmızı qızılgüllər

Qrenobl Qış Olimpiya Oyunları 1968-ci il fevralın 6-da açıq elan edildi.

Qrenobl Olimpiadası üçün nəzərdə tutulan və 12 min tamaşaçı tutan “Buz stadionu” 16 ay ərzində tikilib istifadəyə verildi. Bundan başqa yarışların keçirilməsi üçün 200 km uzunluğunda yeni yolun çəkilişi də vaxtında başa çatdırıldı. Olimpiya kəndi də yarışlardan əvvəl idmançıların ixtiyarında idi.






X Qış Olimpiya Oyunlarının təntənəli açılış mərasimində bayram əhval-ruhiyyəsi ilə bəzənmiş stadiona vertolyotlarla göydən 30 min dənə al-qırmızı qızıl gül səpildi. Bu qeyri-adi hadisə Qrenoblın gerbində təsvir olunan üç dənə al-qırmızı qızılgüllə bağlı idi. Gerbdə olan qızıl güllərdən biri sənayeni, ikincisi təhsili, üçüncüsü isə idman və turizmi tərənnüm edirdi.

### Olimpiadasının sürprizləri

Qrenobl Olimpiadası sürprizlərlə dolu möhtəşəm idman tədbiri kimi tarixə düşdü. Həmin sürprizlərdən biri də 30 km məsafəyə xizəkçilərin yarışlarında baş verdi. Adətən bu yarışlarda Norveç, İsveç, Finlandiya və SSRİ idmançıları fərqlənirdilər. Bu dəfə xizək yarışlarının qəhramanı adını qazanmaq isə 27 yaşlı Franka Nonesə (İtaliya) qismət oldu.

Yenə həmin yarışlarda İsveç təmsilçisi Toyni Qustavssonun uğuru olimpiadanın yaddaqalan hadisələrindən oldu. Maraqlıdır ki, 30 yaşını yeni qeyd etmiş bu idmançının Qrenobl-1968-a qədər yüksək idman göstəriciləri qeydə alınmamışdı.

### “Xizəyin kralları”

Norveç idmançılarını “xizəyin kralları” adlandırırlar. Bu ölkənin təmsilçiləri qış idman növlərində əsil peşəkardırlar. Qrenobl Olimpiadasında da yüksək nəticələrə imza atan norveçlilər böyük uğurlar qazandılar. Harald Qrenninqen 15 km, Ule Ellefseter isə 50 km məsafəyə yarışlarda fəxri kürsünün ən yüksək pilləsinə qalxdılar. Həm kişilər, həm də qadınlar arasında keçirilən xizək yarışlarının qalibləri yalnız norveçlilər idi.

### Konkidə qələbə hollandlara məxsus idi

SSRİ-nin idman veteranı 36 yaşlı Yevqeni Qrişin 500 m məsafəyə konki yarışlarında dördüncü yerlə kifayətlənməli oldu.

Konki yarışlarında norveçlilərin rəqibi hollandlar idi. İndiyə qədər çıxış etdikləri qış olimpiadalarında qələbə sevincini dadmayan Hollandiya idmançıları Qrenobl Olimpiadasında yüksük oyun və ustalıq nümayiş etdirərək, 5 medala layiq görüldülər. Karolina Geyssen və Yoxanna Sxyut 1000 və 3000 m məsafəyə yarışların qızıl medalını aldılar.

Sprint yarışlarında sovet idmançısı Lyudmila Titova fərqləndi. Bu yarışlarda çempion tituluna layiq görülən idmançı 1000 m məsafədə aktivinə daha bir medal - gümüş yazdırdı.

Tramplindən tullanma yarışlarının qızıl medalına sahib olmaq Vladimir Belousova qismət oldu. Qrenobl mətbuatı SSRİ idmançısı haqda yazdığı məqalədə onun tramplindən tullanma hərəkətini qartalın uçuşuna bənzədirdi.

Dağ xizəyi yarışlarının qalibi fransızların kumiri Jan-Klod Killi idi. Killi bu yarışlarda üçnövçülük üzrə dünya rekordçusu Toni Zaylerin nəticəsini təkrarladı.

Snayperlərin yarışında Noveç idmançısı Maqnar Solberq fərqləndi.

Cütlüklərin fiqurlu konkisürmə yarışlarında isə Tatyana Juk və Aleksandr Qorelik I, məşhur cütlüklər Lyudmila və Prototopov II yerə çıxdılar.

Kişilərin fərdi fiqurlu konkisürmə yarışlarında Avstriya idmançısı Volvanq Şvarts qalib gələrək Olimpiya çempionu tituluna layiq görüldü.

Qadınlar arasında fiqurlu konkisürmə üzrə fərdi yarışlarının qızıl medalını ABŞ təmsilçisi Peqqi Fleminq aldı.

### Olimpiadanın hokkey turniri

X Qış Olimpiya Oyunlarının hokkey turniri drammatikliyi ilə fərqlənirdi. Finlandiya, ADR, ABŞ, AFR və İsveç komandalarını məğlubiyyətə uğradan SSRİ yığması, Çexoslovakiya ilə görüşdə oyunu uduzmuşdu. Çexoslovakiya və Kanada yığma komandasının 10, SSRİ-nin isə 9 xalı var idi. Çexoslovakiya və İsveç görüşünün heç-heçə qurtarması turnirdə sovet idmançılarının qələbəsinə zəmin yaratdı. SSRİ yığma komandası finalda Kanada hokkeyçiləri ilə görüşürdü. Sovet idmançıları yüksək qələbə əzmi nümayiş etdirərək turnirin qalibi oldular.

*4-5-ci səhifələri hazırladı:*
*Səadət Hakıyeva*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

*Ölkəmizdə idmanın inkişafı və kütləviliyi diqqət mərkəzindədir. "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" layihəsi çərçivəsində "Olimpiya dünyası" qəzeti budəfəki yazını "Sumqayıt" futbol klubuna həsr edib. Buyaxınlarda "Sumqayıt" klubu Türkiyənin Antalya şəhərində təlim-məşq keçirdi. Qəzetimizin əməkdaşı klubun məşqlərini və yoldaşlıq oyunlarını birbaşa izləmək imkanı əldə etdi. Premyer Liqanın ikinci dövrəsinə hazırlaşan Sumqayıt təmsilçisi qarşısına Avropa Liqasına vəsiqə qazanmaq məqsədini qoyub. Təlim-məşq toplanışı başa çatdıqdan sonra "Sumqayıt" futbol klubunun prezidenti Kamran Quliyev, baş məşqçisi Samir Abasov və hücumçusu Amil Yunanov qəzetimizə müsahibə verdilər.*

# "Sumqayıt" klubunda yerli futbolçuların inkişafı üçün yüksək şərait yaradılıb

## Kamran Quliyev: "Məqsədimiz akademiyanın yetirmələrinin əsas komandada çıxış etməsidir"

***- Futbol sektoruna nə vaxt gəlmisiniz?***

- Futbola 2009-cu ildə gəlmişəm. AFFA-nın baş katibi Elxan Məmmədov mənə Texniki



Departamentdə bir vəzifə təklif etmişdi. Həmin dövrdə Azərbaycanın əsas milli komandası istisna olmaqla, digər yığmaların inzibati məsələlərinə nəzarət edəcək şəxs lazım idi. Yəni belə bir vakansiya vardı. Elxan müəllimlə bir-birimizi çoxdan tanıyırdıq. O, biliridi ki, mən futbol həvəskarı, azarkeşiyəm.

***- "Sumqayıt" klubunun heyətində legioner futbolçuların oynamaması nə ilə bağlıdır?***

- Bu büdcə ilə 3-4 legioner gətirənlər də olub. "Sumqayıt" Azərikimya İstehsalat Birliyinin nəzdində yaradılan klubdur. Klub təsis ediləndə məni ora dəvət etdilər. Həmin vaxt milli komandanın maraqları nəzərdə tutulurdu. AFFA-da işləyəndə 16-17 yaşlı yığma üzvlərini görüb, tanıyırdım. Bu məsələdə şəxsi təcrübəmdən istifadə etmək istəyirdilər. Siyasətimiz belə olub ki, milli komandaya yeni nəsil yetişdirmək lazımdır. Biz fəaliyyətə başlayanda legioner limiti 8+3 idi. Bu, indiki ilə müqayisədə böyük fərq idi. Hazırda klublarımızın heyətində kifayət qədər azərbaycanlı futbolçu oynayır. Son illər ərzində klublar akademiyalara xeyli vəsait yatırdılar, yeni və perspektivli futbolçular üzə çıxdı. Bir problem vardı: yetişən uşaqlar nə vaxt və harada oynayacaqlar? Bu, çox aktual sual idi. Ona da cavab olaraq "Sumqayıt" klubu yarandı.

***- AFFA-da çalışdığınız dönəmdə Rusiya vətəndaşı olan Aleksandr Səmədov, Emin Mahmudov kimi futbolçuların Azərbaycan yığmasına cəlb olunmaları işi ilə məşğul olmusunuz...***

- O vaxtı seleksiya ilə məşğul olacaq ayrıca şəxs yox idi. Amma bizim Texniki Departamentin rəhbəri Bernhard Lippert futbolyönümlü işlərlə məşğul idi. Həm U-19, həm də U-21-in baş məşqçisi idi. Məşqçi kursları təşkil etməklə yanaşı, seleksiya işləri də aparırdı. Xaricdən futbolçu tapmaq isə mənə həvalə olunmuşdu. O vaxt çox adam tapmışdıq. Ramil Şeydayev, Ayaz Quliyevi bizim departament tapıb. Ramil Şeydayevlə ilk söhbətimiz olanda onun 14 yaşı vardı.

***- Bəs yerli futbolçuların əksəriyyəti niyə Avropaya gedə bilmirlər? Nə çatışmır?***

- Ciddilik və peşəkarlıq. Eyni sualı Rusiya futbolçularına da şamil etmək olar. Niyə gedib bir dəfə oynayıb, sonra geri qayıdırlar? Çünki "evdə hər şey yaxşıdır" deyə düşünürlər. İndi nə xoşuna gəlir? Son dövrlərdə bizim futbolçuları Çexiyaya aparırlar. Bax, əsl yerləri oradır. Çünki tab gətirən futbolçu qabağa gedəcək. Bizimkilər bu peşəni nə ciddiyə alırlar, nə də təhsillə məşğul olurlar.

***- "Sumqayıt" klubunda uşaq futbolunun hazırkı vəziyyətini necə qiymətləndirirsiniz?***

- Bunu 5 ballıq sistemlə qiymətləndirsək, 3-dən çox olmaz. Klubumuz hələ gəncdir. İstədiyimizə nail olmamışıq. Ona görə ki, infrastrukturumuz hələ yüksək səviyyədə deyil. Peşəkar klub üçün infrastruktur genişləndirilməlidir. Bundan başqa, ölkəmizdə peşəkar məşqçilərin səviyyəsi artmalıdır. Bunun üçün müəyyən vaxt keçməlidir. Aşağı yaş qruplarının çempionatlarına baxıram. Hətta gedib onlara azarkeşlik etdiyim vaxtlar da olub. "Sumqayıt" yerli futbolçuların inkişafında maraqlı olan klublardandır. Xaricdən futbolçu transfer etmirik. Məqsədimiz akademiyanın yetirmələrinin əsas komandada çıxış etməsidir.

***- Uşaq futbolu ilə bağlı tanınmış komandalarla əməkdaşlıq etmək fikriniz varmı?***

- Əlbəttə var. Ən azından xarici klublardan uşaq futbolu ilə bağlı məlumatlar almaq, təcrübəsindən yararlanmaq istəyirik. Ötən ilin may ayından üç məşqçimiz Avropanın Zaqrebin tanınmış "Dinamo" klubunda praktikada oldular. Bildiyiniz kimi, həmin klubun uşaq futbol akademiyası yüksək səviyyədə inkişaf edib. Bundan başqa, klubun baş məşqçisi Samir Abasov İspaniyanın "Atletiko" klubunda da olub. Baş məşqçi komandanın həm bazası, həm də akademiyasında bir sıra görüşlər keçirib. Bir sözlə, xarici klubların təcrübəsindən yararlanır, bu təcrübəni komandada həyata keçirməyə çalışırıq.

***- Sizcə, uşaq futbolunda çatışmayan cəhətlər hansılardır?***

- Çox istərdik ki, uşaq komandalarımız qonşu ölkələrdəki turnirlərdə iştirak etsinlər. Çünki bu amil onların inkişafına səbəb olacaq. Bayaq dediyim kimi, Sumqayıtda infrastrukturla bağlı müəyyən problemlər var. Stadion və məşq meydançalarının sayı azdır. Əslində, hər şəhərdə 20-25 stadion fəaliyyət göstərməlidir. Uşaq futbolçular peşəkar səviyyədə böyüməli, məşq etməlidirlər. Etiraf edim ki, hazırda bizdə məşqlərin sayı və keyfiyyəti aşağıdır. Əlbəttə, 10 il əvvəllə müqayisədə indiki vəziyyət yaxşıdır. Amma görüləsi işlər çoxdur. Hazırda uşaq futboluna maliyyə ayıran iş adamları azdır. Sadaladığım bu amillər uşaq futbolunun inkişafını ləngidir. Təbii ki, bu məsələlərdə maliyyə problemi əsas rol oynayır. İnanıram ki, gələcəkdə bunlar öz həllini tapacaq.

***- Ötən mövsüm Avropa Liqasına vəsiqəni son anda əldən verdiniz. Bu mövsüm komanda daha yaxşı təsir bağışlayır və Azərbaycan kubokunun yarımfinalına vəsiqə qazanıb. Müqayisə aparsanız, nələr dəyişib?***

- Heyətimizin 70 faizi qalıb. Uşaqların özləri böyüyüb, təcrübələri artıb. Bu il uğurlu transferlər etdik. Heyətdə çatışmayan cinah yarımmüdafiə idi. Hazırda oraya kifayət qədər futbolçu cəlb olunub.

***- Azərbaycan kubokunun 1/4 finalında "Qarabağ"ı keçmək sizin üçün sürpriz oldu?***

- Çempionlar Liqasındakı oyunlardan sonra "Qarabağ"da yorğunluq vardı. İlk matçda biz qol vurduq. Amma sonradan onlar iki dəfə fərqləniblər. Komandamız "Qarabağ"a meydanda şans vermədi. Sürpriz də olsa, layiqli qələbə idi.

***- Avrokuboka vəsiqə qazanmaq sizin üçün nə deməkdir?***

- Bu, bir nailiyyət olacaq. Sonra gələcəyi düşünəcəyik. Əlbəttə, bizim üçün böyük uğur olar. Klubumuz yerli futbolçularla çıxış edir. Bir məqamı da qeyd edim: indiyə qədər bizim "11-lik"də bu qədər sumqayıtlı futbolçu olmayıb.

***- Sizcə, Avroliqaya gedən yolda daha çox kuboka bel bağlayırsınız, yoxsa Premyer Liqaya?***

- Hər oyunda meydana qələbə üçün çıxırsan. Çox böyük, geniş heyəti olan klublar bir yarışda əsas, digərində ehtiyatda qalanlarla oynayırlar. Amma bizim heyətimizdə futbolçu azdır.

## Samir Abasov: "Bu toplanışdakı gənc futbolçulardan əvvəlkilərə nisbətən razıyam"

***- Antalyadakı təlim-məşq toplanışı başa çatdı. Hazırlığı necə dəyərləndirirsiniz?***

- Toplanış yaxşı keçdi. Ümumi götürəndə, futbolçular arasında yükü bölə bildik. Komandaya yeni gələn futbolçular - Nicat Qurbanovla Ülvü İsgəndərov uyğunlaşma prosesindədirlər. Elnur Abdullayev isə zədəlidir. Yeni gələnlər hələ də əziyyət çəkirlər. Amma inanırıq ki, yaxşı olacaq. Bəlkə də, Ülvü İsgəndərov komandaya gec qoşulduğuna görə bu problemi yaşayır. Bildiyiniz kimi, o, U-21 millisinin heyətinə dəvət olunmuşdu. Mənə elə gəlir ki, onlar komandaya tez uyğunlaşacaqlar.

***- Taktiki gedişlər baxımından fikrinizi yeni futbolçulara aşılaya bilmisiniz?***

- Sumqayıtda 2 həftədən çox fiziki hazırlıqla məşğul olduq. Plana görə, fiziki hazırlığı məhz Sumqayıtda keçməli idik. Bilirdik ki, Antalyada 3 gündən bir oyunumuz var. Sözün açığı, taktikada nələrisə dəyişmək fikrində idik. Sumqayıtda 1-2 oyun keçirəndən sonra fikirləşdik ki, bunu etmək risk ola bilər. Bundan əvvəlki taktikamız o qədər də uğursuz deyildi. Yaxşı oynayırdıq. Futbolçular oyun sistemini başa düşürdülər. Fikirləşdik ki, hələ bu sistemdə qalaq. Bu, futbolçular üçün qlobal problem deyil. Taktikada 1-2 nüans var ki, onları əlavə etmişik. Sadəcə, hazırkı məqsədimiz yeni gələn futbolçuları bizim istədiyimiz taktikaya uyğunlaşdırmaqdır.

***- Komandanın heyətində gənc futbolçuları da sınaqdan keçirdiniz. Onların çıxışını necə qiymətləndirirsiniz?***

- Gənc futbolçular bizim akademiyanın yetirmələridir. Heyifslənirik ki, Səbuhi Abdullazadə bizimlə deyil. Həmin futbolçu da 2001-ci il təvəllüdlüdür. O, milli komandanın heyətində idi. Bir neçə gün əvvəl gedib. Çox istərdik ki, o, da bizimlə olsun. Etiraf edək ki, limit səbəbi ilə çıxandan



gənclərə də diqqət yetirməyə başlayırsan. Limitə əsasən, ildən-ilə heyətə daha cavan futbolçular gəlir. İstəmirəm ki, gənc futbolçular məsələsində problem yaşansın. Cavan futbolçulardan çox razıyam. Ən azından, gənclərdən əsas komandaya 2-3 futbolçu seçilib gəlirsə, demək, bunlarda nəsə var. Özü də bu futbolçular akademiyadan, əvəzedici heyətdən seçilirlər. Deməli, bunlar yaxşı çıxış edirlər ki, seçilirlər. Bu futbolçular digərlərindən geri qalmadılar. Toplanışdakı gənc futbolçulardan əvvəlkilərə nisbətən razıyam.

***- Qış fasiləsindən sonra onlara tez-tez şans verəcəksiniz?***

- Bunu deyə bilmərəm. Hazırda bizim qrafik elədir ki, ekspremennt aparmaq imkanımız yoxdur. Hələ ki, elə şey fikirləşmirik. Əsas odur ki, onlar bizimlədir. Lazım olan anda onları meydanda görə bilərsiniz. Amma deyə bilmərəm ki, biz gənc futbolçuları oynadacağıq. Bilirsiniz ki, çempionat və kubokdakı oyunlarımız çox vacibdir.

***- Rəqiblərinizin hamısı Antalyada təlim-məşq toplanışında idi. Yəqin ki, onların oyunlarını izləyə bildiniz...***

- "Zirə", "Keşlə" və "Səbail" klubları ilə oyunlarımız olub. Onlar haqqında müəyyən informasiyaya malikəm. Ən azından köməkçilərim onların oyunlarına baxıblar. Amma "Neftçi" komandası ilə bağlı məlumatımız yoxdur. İndi rəqib kimi komandaları bölə bilmərəm. Bilirsiniz ki, çempionatın aşağı pilləsində "Kəpəz" klubu qərarlaşıb. Onlar da fasilədə komandaya yeni futbolçular dəvət edib gücləniblər. Onların necə oynayacağı isə hələ ki, sirr olaraq qalır. Masa üstündə onlar güclənibər. Necə çıxış edəcəkləri çempionatın gedişində bəlli olacaq. Mənim özüm üçün də maraqlıdır. Sözün açığı, bir az da qorxuludur. Bizim üçün hamısı rəqibdir. Ardıcıl itirdiyimiz xallar turnir cədvəlinin aşağı pilləsinə apara bilər. Uşaqlar da bilirlər ki, bizə nə qədər çətin olacaq.

***- "Sumqayıt" klubu ölkə kubokunun yarımfinalındadır. Təbii ki, Avroliqa üçün kubok daha qısa yol sayılır...***

- Yalnız kubok oyunlarını fikirləşsək, çempionatdakı nəticələrimiz pis olacaq, yaxud da əksinə. İkisindən birini seçsək, itirəcəyik. Hazırda əsas məqsədimiz odur ki, eyni tempdə gedək. Uduzsaq da, öz oyunumuzu oynayaq. Amma hansında irəli getsək, uğur qazansaq, bu, bizim üçün sevindirici olacaq.

***- Əsas məqsəd ölkə çempionatıdır, yoxsa kubok?***

- Kubok oyunları hələ apreldədir. Buna qədər çempionatda önəmli oyunlarımız olacaq. Çempionatın gedişində kuboku fikirləşə bilərik. Hər iki "cəbhə"də uğur qazanmaq istəyirik.

***- Ancaq Azərbaycan kuboku titul sayılır. Bu, "Sumqayıt" üçün tarixi nailiyyət ola bilər...***

- Razıyam, Azərbaycan kuboku titul sayılmaqla bərabər, avrokubok üçün qısa yoldur.

***- Həm çempionatda, həm də kubokda mübarizə aparmaq üçün hazırki heyət kifayət edirmi?***

- Heyətə futbolçu transfer etmək haqqında düşünmürük. Siz də bilirsiniz ki, heyətə ancaq azərbaycanlı futbolçuları dəvət edirik. Hazırda bizim komandaya uyğun transferə çıxarılan futbolçu yoxdur. Başqa çıxış yolumuz da yoxdur. Bayaq dediyim kimi, heyətə 3 gənc futbolçu dəvət etmişik. Nə qədər gücümüz var, həm çempionatda, həm də kubokda oynayacağıq.

***- Mövsümün son bir ayında doğma azarkeşlər önündə oynamamaq ehtimalınız var. Bu amil həlledici manea ola bilərmi?***

- Həm manea, həm də həlledici məqam ola bilər. Açığı deyim, bu, bizim üçün çox pisdir. Çünki ən azından, "Sumqayıt" azarkeşlərini də tanıyırsınız. Futbolçular da o dəstəkdən güc alırlar. Biz doğma azarkeşlər önündə fərqli oynayırıq. Amma bu problem çıxsa, bizə mənfi mənada təsir edə bilər. Əlimizdən gələni edirik ki, kubokun ikinci oyununu Sumqayıtda keçirək.

***- Yoldaşlıq oyunu zamanı problemləri gördünüz. Bundan sonra nəyin üzərində işləmək lazımdır?***

- Komandada qlobal problem yoxdur. Dəyişilməsi 1-2 nüans var ki, onları açıqlaya bilmərəm. Məşqlərdə bir neçə taktika üzərində işləyirik. Amma yoldaşlıq oyunu zamanı onları daha yaxşı göstərə bilmirik. Bəzən tapşırıqlar yaxşı alınır, ama tam olaraq həyata keçmir. Çempinatın oyunları zamanı onları mənim dediklərimi daha yaxşı başa düşəcəksiniz. Alınsa, özünüz də biləcəksiniz ki, biz məşqlərdə nəyin üstündə işləyirik.

***- Sumqayıtda uşaq futbolunun inkişafını necə qiymətləndirirsiniz? Yəqin ki, aşağı yaş qruplarının oyunlarına baxırsınız.***

- Vaxtım olduqca baxıram. Uşaq futbolu, tək Sumqayıtda yox, Azərbaycanda gündəmdə olan məsələdir. "Sumqayıt" klubunun akademiyasında istedadlı uşaqlar çoxdur. Siyahımda bəyəndiyim gənc və perspektivli futbolçuların adları kifayət qədərdir. Akademiyanın yetirməsi olan 2001-ci il təvəllüdlü iki futbolçu hazırda komandanın əsas heyətində çıxış edir. Onlara həm çempionat, həm də kubokun oyunlarında şans verirəm. Deməli, akademiyanın xidməti yüksək səviyyədədir. Bizim klub pillə-pillə nailiyyət əldə edir. Bununla yanaşı, digər klubların akademiyasından da heyətə gənc futbolçular dəvət edirik.

***- "Sumqayıt" azarkeşlərinə sözünüz varmı?***

- Gündən-günə azarkeşlərimizin sayı artır. Bu, futbolçularımızın son vaxtlar yaxşı çıxış etməsindən irəli gəlir. Bir məsələni vurğulayım ki, doğum günümlə bağlı azarkeşlərdən kifayət qədər təbrik mesajları almışam. Sağolsunlar, həmişə bizi dəstəkləsinlər. Onlara həddindən artıq ehtiyacımız var. Yoldaşlıq oyunlarımıza da azarkeşlərimiz gəlir. Azarkeşlərimizdən xahişim odur ki, bütün Azərbaycan azarkeşlərinə örnək olsunlar.

## Amil Yunanov: ""Sumqayıt" klubunda gənclərə daim şans verilir"

***- Komandanızın Antalya toplanışı necə keçdi?***

- Klubumuzda əla ab-hava var. Qış fasiləsində hazırlığa Sumqayıtda başladıq. Yanvarın 21-dən etibarən isə Türkiyədə idik. Bir neçə yoxlama oyunları keçirdik. Bəzi oyunlarda uduzsaq da, indiki durumda nəticə önəmli deyil. Əsas məsələ səhvlərimizi görmək, onlardan nəticə çıxarmaqdır. Mövsümün qalan hissəsinə tam hazırıq.

***- Toplanış çərçivəsində baş məşqçi Samir Abasov futbolçulardan nə tələb edirdi?***

- Bizdən tələb olunan komanda oyunudur. Yoxlama matçlarında nəticə istənilmirdi. Əsas odur ki, baş məşqçinin verdiyi tapşırıqları yerinə yetirək. Bunun da bəhrəsini görəcəyik. Premyer Liqada yüksək pillələr uğrunda mübarizəmizi davam etdirmək istəyirik. Üstəlik, Azərbaycan kubokunda yarımfinala vəsiqə qazanmışıq. Yalnız kuboka bel bağlamamalıyıq. Kim bilir, bəlkə, çempionat bizim üçün daha yaxşı olacaq. Hər şeyin öz zamanı var.

***- "Qəbələ"nin yetirməsi olsanız da, əsas komandada möhkəmlənə bilmədiniz. Ardınca "Neftçala" və "Rəvan"da çıxış etdiniz. Bu müddət ərzində sağ yarımmüdafiəçisi olsanız da, "Sumqayıt"da qolları ilə diqqət mərkəzinə düşən mərkəz hücumçusu oldunuz. Bu barədə nə deyə bilərsiniz?***

- Futbola Tovuzda başlasam da, 15 yaşımda "Qəbələ"yə gəldim. Burada aşağı yaş qruplarında, əvəzedici və əsas heyətdə oynadım. Lakin ardıcıl zədələrdən sonra əməliy-



yat olundum. Bundan sonra məni başqa kluba icarəyə verməyi məqsədəuyğun saydılar. Hətta həmin dövrdə "Sumqayıt"a baxışa da gəldim, lakin bura keçidim alınmadı. "Neftçala"ya icarəyə getsəm də, yenidən zədələndim. Bir mövsüm "Rəvan"ın formasını geyindim. Sonra heç bir klub məni heyətinə götürmədi, 3-4 ay futbolsuz qaldım. Bu məqamda "Sumqayıt"ın keçmiş baş məşqçisi Aqil Məmmədov məni komandaya çağırdı. Elə alındı ki, gəlişimdən sonra baş məşqçi dəyişikliyi baş verdi, heyət Samir Abasova tapşırıldı. Məni "Sumqayıt"a cinah yarımmüdafiəçisi kimi gəlmişdim. Lakin Samir müəllim məni məşqlərdə və "Bakı" ilə yoxlama oyununda mərkəz hücumçusu kimi sınamağa başladı. Həmin oyunda iki qol vurdum. Ardınca "Kəpəz"lə görüşdə 15 dəqiqə şans verdi, yenə fərqləndim. Pərdis Fərcad Azad zədələnəndən sonra baş məşqçimiz mənə əsas heyətdə şans verdi.

***- Bir futbolçu kimi inkişafınızda "Sumqayıt"ın oyun tərzinin də rolu olub?***

- Əlbəttə. Samir müəllimin istəyi sürətli və tez hücumdur. Bu, xoşagələn, mənim də istədiyim bir futboldur. Oyun tərzim də bu cürdür. Meydanda hər zaman irəliyə getmək barədə düşünürəm.

***- "Sumqayıt"ın heyətində vurduğun qollardan hansı sənin üçün xüsusidir?***

- Əsas mənim qol vurmağım yox, komandanın nəticə qazanmağıdır. Nəticə əldə etməkdə pay sahibi olmaq hər bir futbolçunu qürurlandırır. Bir qol seçməli olsam, bu mövsüm Azərbaycan kubokunun yarımfinalında "Qarabağ"a vurduğum qolu deyərdim. Həm yaxşı qol alındı, həm də yarımfinala yüksəldik.

***- Futbol karyeranda məqsədin nədir?***

- Üzərimdə daima çalışıram. Məqsədim Avropada oynamaqdır. Karyeramı başa vurandan sonra geriyə baxanda böyük klublarda, millidə çıxış etdiyimi görmək istəyirəm.

***- "Sumqayıt" klubunun sizin üçün ikinci nəfəs olduğunu söyləmək olar?***

- Bura gələndə bilirdim ki, nə vaxtsa oynamaq şansım olacaq. Çünki "Sumqayıt" elə bir klubdur ki, burada gənclərə daim şans verilir, özlərini göstərmələrinə şərait yaradılır. Futbolçu da məqamını gözləməli və ona verilən şansdan istifadə etməyə çalışmalıdır. Bu gün futbol oynaya bildiyim üçün şükür edirəm. Bundan sonra da etimadı doğrultmaq üçün maksimum çalışacağam.

***Rahib Səmədov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

FUTBOL



AFFA-nın baş katibi Elxan Məmmədov Antalyada jurnalistlərin suallarını cavablandırıb. Baş katib milli komandadakı son dəyişikliklərdən danışıb, Millətlər Liqasındakı püşkü dəyərləndirib.

# Elxan Məmmədov:
# “Millətlər Liqası bizim üçün yeni imkanlar, şanslar yaradır”

***- Qurban Qurbanovun gəlişi ilə millidə yeni dövr başladı. Yığma komandadan nə gözləyirsiniz?***

- Millətlər Liqası bizim üçün yeni imkanlar, şanslar yaradır. Artıq rəqiblərimiz də bəllidir. Bəziləri ilə keçmişdə oynamışıq, tanış komandalardır. İlk yoxlama oyunu Antalyada oldu. Əsas məqsəd futbolçuları yoxlamaq idi. Martda ikinci yoldaşlıq matçımız da olacaq. Mayın sonu və iyunun əvvəlində fürsətdən yararlanıb yenə bir neçə oyun keçirəcəyik.

***- Kosovo millisi ilə səfər oyunu hansısa diplomatik problemlər yaratmayacaq?***

- Bildiyiniz kimi, fevralın əvvəlində Kosovo millisi ilə yoldaşlıq oyunu keçirməli idik. Püşkdən sonra eyni qrupa düşdüyümüzə görə, baş məşqçi ilə məsləhətləşib oyunu keçirməməyi qərara aldıq. Kosovo idman qurumu olaraq BOK, FİFA və UEFA üzvü kimi artıq Azərbaycana səfər edib. Onların U-21 komandası da Bakıya gəlib. Bu addımı atmamışdan qabaq Xarici İşlər Nazirliyi ilə dəqiqləşdirdik və UEFA-ya bildirdik. Oyundan əvvəl bir daha XİN ilə məsləhətləşəcəyik, düşünürəm ki, bir problem olmayacaq.

***- Bir neçə baş məşqçi ilə çalışmısınız. Yeni təyinat millidə ab-hava baxımından hansısa dəyişiklik yaradıbmı?***

- Bundan əvvəl iki əcnəbi baş məşqçi ilə işlədik. Bura gələnə qədər onları tanımırdıq. Amma Qurban müəllimi 10 ildir ki, yaxından tanıyırıq. Əvvəl də futbolçu kimi ona azarkeşlik edirdik. İndi bilirəm ki, sürprizlər olmayacaq. Əcnəbilərlə həmişə hansısa gözlənilməzliklər olurdu. Əsas məsələ uzunmüddətli düşünməkdir və bütün yaş qrupları üzrə yığmaların eyni sistemlə oynamasıdır.

***- Millətlər Liqasındakı qrupa baxarkən futbol ictimaiyyəti düşünür ki, bu qrupdan mütləq növbəti mərhələyə vəsiqə qazanmalıyıq. Baş katib olaraq siz nə düşünürsünüz?***

- Məqsədimiz birinci yeri tutmaqdır. Düşünürəm ki, komanda bunu bacaracaq gücdədir.

***- Dünya çempionatının seçmə mərhələsinə milli komandamız “Niyə də yox?” şüarı ilə başlamışdı. Bu dəfə hansı şüar olacaq?***

- Bu barədə Marketinq şöbəsinin əməkdaşları düşünürlər. “Niyə də yox?” ölkədə çox populyar oldu. Düzdür, seçmə mərhələnin sonu uğursuz olduğuna görə şüar axırda komik format aldı. Buna baxmayaraq, addım özünü doğrultmuşdu.

***- Daha əvvəlki məşqçilərin AFFA-dan tələbləri çox idi, yoxsa Qurban Qurbanovun?***

- Elə də böyük fərq yoxdur. Məşqçilər ilk gündən öz tələblərini səsləndirirlər. Biz də baxırıq və qəbul edirik. Qurban müəllim də öz arzu və tələblərini bildirdi, bu proses davam edir. Qeyri-adi bir şey yoxdur. Əsas odur ki, müəyyən standartlar var.

***- Adətən yerli məşqçilərlə əcnəbilər arasında onlara yaradılan şəraitdə fərqlər olur. Bu dəfə də elə olacaq?***

- Biz 2018-ci ilin büdcəsini artıq təsdiq etmişik, heç bir dəyişiklik yoxdur. O, daha çox məşqçinin özündən asılıdır. Əgər onun öz tələbləri varsa, vəzifəsinə hörmətlə yanaşırsa, tələb edəcək və işəgötürən də bunu icra edəcək.

***- Millətlər Liqasında yolumuz Ermənistan millisi ilə kəsişə bilər. Bunu istərdinizmi?***

- Bu, problemli oyundur. Püşkə görə bu mərhələdə düşə biməzdik, amma növbəti mərhələdə qarşılaşmaq mümkündür. UEFA bizə şifahi olaraq xəbərdarlıq etdi ki, bu hal baş versə, məsələyə İcraiyyə Komitəsi qarışacaq. Amma futbol elədir ki, yekunda FİFA və UEFA-nın tövsiyələrini nəzərə alacağıq. Nə lazım olsa, onu da edəcəyik. Neytral meydançada olsa da, oyun təşkil olunacaq. Eyni qaydada canlı yayım, sponsor problemləri var.

---

# *Ramin Musayev:*
# “I divizionda növbəti mövsüm tam fərqli olacaq”



*Fevralın 2-də Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayev Türkiyənin Antalya şəhərində mətbuat konfransı keçirdi. O, “Miracle” hotelində azərbaycanlı jurnalistlərin suallarını cavablandırdı.*

***- Antalyada keçirilən təlim-məşq toplanışı haqda fikirlərinizi bilmək istərdik.***

- Təlim-məşq toplanışı artıq neçə ildir ənənəyə çevrilib. Bunu da AFFA rəhbərliyi yaradıb. Bilirsiniz ki, toplanışda hakimlərimizin idarə etdikləri oyunların sayı mövsümdəki matç sayına bərabər olur. Ümumilikdə hakimlərimiz 74 oyun idarə ediblər. Məqsəd odur ki, onlar fiziki göstəricilərini artırsınlar və hansısa klubun haqqı tapdalanmasın. Klubların da işləri ilə maraqlanırıq. Onların hazırlıqları ilə bağlı kifayət qədər məlumatlarımız var.

***- Fariz Yusifov toplanışda iştirak etmirdi. Halbuki çempionatda əsas oyunlar ona həvalə edilir...***

- Fariz müəllim peşəkar hakimdir, idmanla məşğul olur. Onun peşəkarlığına şübhə ola bilməz. İnanıram ki, yenə ümidlərimizi doğruldacaq. Keçən mövsümdə ən çətin oyunlarda o, idarəçilik edib.

***- “Neftçi”nin baş məşqçisi Tərlan Əhmədovla aranızda soyuqluq yarandığı haqda xəbərlər yayılıb. Onun görüşmək cəhdlərinə razılıq vermədiyiniz bildirilir...***

- Mən Tərlan Əhmədovun “Neftçi”yə gedişinə zamin durmuşam. Tərlan gözəl məşqçi, gözəl insandır. Amma çıxışımın əvvəlində dedim ki, klubların nə işlə məşğul olması haqda məlumatımız var. Mənə deyildi ki, Tərlan vaxtınının çoxunu klubdan kənarda keçirir. Mən də bu səbəbdən ona iradımı bildirdim. Yəni, sadəcə, incimişəm. Amma Tərlan yaxşı məşqçidir, onun xasiyyətinə bələdəm.

***- Hakimlərin hazırda necə formada olduğunu bilirsiniz. Qış fasiləsindən sonra “Qarabağ” və “Qəbələ” arasında keçiriləcək oyuna kimi layiq görürsünüz?***

- Bu günə qədər hansı hakimin hansı oyuna getməsi ilə bağlı istəyimi irəli sürməmişəm. Halbuki, müqavilə əsasında bunu etməyə ixtiyarım var. Çempionatı keçirən qurum rəhbəri kimi, məndə məlumatlar olur. İradlarımı bildirməyə ixtiyarım var. Amma heç nə demirəm. Sadəcə, iradlarımı bildirirəm. “Qarabağ” və “Qəbələ” klubları arasındakı oyun çempionluğun taleyini həll etmir. Hələ qarşıda bir neçə tur olacaq. Rauf Cabbarov, Fariz Yusifov, Əliyar Ağayev və digər hakimlərimiz də bu matça təyinat ala bilər. Rəşad Əhmədov bu gün artıq hazırdır. İnanıram ki, həmin oyunu ona versək, gözəl idarə edə bilər. Sadəcə, Rəşada mənim kimi insan dəstək verməlidir.

***- Çempionatın qalan hissəsindəki mübarizəni necə qiymətləndirirsiniz? Sizcə, çempion kim olacaq?***

- Çempionun kim olacağını deyə bilmərəm. Yoldaşlıq görüşlərində komandalarımızın uduzması onların zəifliyi demək deyil. “Səbail”in matçında oldum. Gördüm ki, baş məşqçi bəzi futbolçuların mövqeyini dəyişib. Bunu Qurban Qurbanovun özündə də görmüşəm. Bu il 3-4-cü yerlər uğrunda daha çox mübarizə gedəcək.

***- I divizionla bağlı hansı fikirdəsiniz? Aşağı dəstədən Premyer Liqaya komanda çıxacaqmı?***

- “Xəzər” klubu çox xoşuma gəldi. Orada iddialı komandalarımız var. Mənim üçün I divizion çox önəmlidir. İstərdim ki, şəxsi büdcəsi ilə maliyyələşən klublarımız daha çox olsun. Antalyada “Xəzər” rəhbərliyi ilə söhbətimiz oldu. Dedilər ki, Premyer Liqaya gələ bilərik. Onu da deyim ki, I divizionda növbəti mövsüm tam fərqli olacaq. Cari mövsüm başa çatana qədər daha 1-2 klub çempionatı tərk edə bilər. Artıq bəzilərinin izinə düşmüşük. Məlumatlarımız öz təsdiqini tapmaq üzrədir.

***- Millimizin Moldova komandası ilə oyunu haqda fikirlərini bilmək istəyirik.***

- Yeni futbolçular gördüm. Qurban müəllim gənc futbolçulardan istifadə etməyi bacarır. İnanıram ki, tez bir zamanda yığma komandalarımız da azarkeşlərini sevindirəcəklər. Millinin oyununda bir nəfəri gördüm. Bakıdan birbaşa Antalyaya yığmanın matçına baxmaq üçün gəlmişdi. Bundan başqa, balaca uşaqlar da milliyə dəstək verdilər.

***- Gürcüstan futbolunda komandaların əvəzedici heyətləri və bir neçə aşağı yaş qrupları ləğv olunub. Bizdə də belə bir sistem tətbiq oluna bilərmi?***

- Bu addımın müsbət olub-olmayacağını hələ bilmirik. Futbol komandaları nə qədər çox yarışlarda iştirak etsələr, bir o qədər yaxşıdır. Gürcülər cəmi 3 aşağı yaş qrupu saxlayacaqlar. Məncə, bu, yanlış fikirdir. Hər yaş qrupunun öz çempionatı olmalıdır. Bilirsiniz ki, PFL yaranana qədər bizdə əvəzedicilərin çempionatı ləğv olunmuşdu. Biz onu bərpa etdik. Əvəzedici heyəti ləğv etmək yox, başqa planımız var. Rəşad Sadıqovla söhbət etdik, ümumi bir fikir irəli sürdük. Onu bu gün açıqlamaq istəmirəm. Amma çox bəyəndim, yaxşı fikirdir. Əgər icra edə bilsək, hamımızın ürəyincə olacaq. Sadəcə, klubların razılığı olmalıdır.

***- Klublarımızın maddi cəhətdən əvvəlki illərə qayıtmaq imkanı var?***

- Şükür Allaha, vəziyyətimiz bu gün yaxşıdır. Məncə, əvvəlkindən də yaxşı olacaq. Bu gün klublarımızın əksəriyyəti daha çox keyfiyyətə üstünlük verirlər.

***- PFL sosial layihələrlə bağlı vaxtilə çox hərəkətli idi. Qurum yenə bu baxımdan fəallaşacaqmı?***

- Klublarımızın vəziyyəti düzəlirsə, inşallah, bizim də vəziyyətimiz düzələr (gülür). Əvvəl klublarımızın vəziyyəti yaxşı olmadığı üçün borc məsələsində onları çox sıxa bilmirdik. Vəziyyət normaldır. Amma klublarımızdan borclarımızı ala bilsək, vəziyyət daha da yaxşılaşacaq.

***- İki futbolçu ömürlük futboldan uzaqlaşdırılandan sonra başqa sanksiyalar olmadı...***

- Hər birimizin bir məqsədi var: təmizlik, düzgünlük olsun. Baş katib Elxan Məmmədov da bunu istəyir. Oyunçularla bağlı vəziyyətdə sakitlik deyil. İşlər gedir. AFFA və PFL birgə çalışır. Hər şey məxfidir. Açıqlasaq, işin gedişinə mane ola bilər.

***- Növbəti mövsümdə Premyer Liqada 8-dən çox komanda olacaq?***

- Klublarımızın vəziyyəti yaxşıdır. Bu il Antalyaya 8 klubun hamısı gəldi. I diviziondan Premyer Liqaya gəlmək istəyənlərə maneə törətməyəcəyik. Əgər maddi durumları imkan verərsə, onlara dəstək olmaq bizim borcumuzdur. “Xəzər” və “Binə” klubları müraciət edib. Hər şey ola bilər. Amma indidən konkret söz deyə bilmərəm. Təki gələn il Premyer Liqada 12 komanda olsun.

***- “Araz Naxçıvan”ın Premyer Liqaya qayıtmaq variantı varmı?***

- Naxçıvan blokada vəziyyətindədir. Buyaxınlarda eşitdim ki, oraya qatarla gedib-gəlmək bərpa olunacaq. Əgər bu baş versə, məncə komanda qayıda bilər. Həm də digər klubların Naxçıvana getmək imkanları da yaranar. “Arax Naxçıvan”ın istəyi var, amma ümumi vəziyyət, indiki durum buna imkan vermir.

***- Ölkə kubokunun finalı harada keçiriləcək?***

- İki məkan üzərində dayanmışam: birinci Gəncə, sonra Qəbələ. Qəbələdə bizim oyun keçirməyimiz işimizi 50 faizdən artıq yüngülləşdirir. Çünki klub bizə dəstək olur. Amma Gəncəyə doğru da addım atmaq istəyirik. Təkcə işıqlandırma ilə bağlı problemimiz var. Əgər mayın 28-nə qədər bu məsələdə, Gəncə hazır olsa, orada keçirəcəyik. Əks təqdirdə isə Qəbələnin stadionunu məkan seçəcəyik.

***- Kubokun final matçının Lənkəran və ya İmişlidə keçirilməsi mümkündürmü?***

- O zonaya da böyük hörmətim var. Amma öyrəndik ki, stadionun ot örtüyü yaxşı vəziyyətdə deyil. Şərait olmalıdır. Hazırda orada işlər dayanıbsa, bizim işimiz daha da artıq olar. Mən təkcə seçdiyimiz rayonu yox, ətrafı da fikirləşirəm. Oyunu İmişlidə keçirsək, hansı rayonlardan gələcəklər? Həm də orada da şərait yaxşı deyil.

***- Həm Qurban Qurbanovun, həm də Rəşad Sadıqovun eyni anda bir neçə yerdə çalışması “Qarabağ”a mənfi təsir etməyəcək?***

- Qurban Qurbanov millinin düşərgəsində olanda belə, klubda təlimatlarını verir. Əsas odur inam olsun. Əgər birgə işlədiyin yerdə sənə arxa dururlursa, onda problem olmayacaq. Qurban müəllim yığmada olanda komandanı Rəşada tapşırdı. Amma tapşırıqları yenə Qurban Qurbanov vermişdi. Düzdür, Qurban müəllim birdən-birə fantastik nəticələr göstərməyə bilər. Cavandır, ona vaxt vermək lazımdır. Qurban dostum olduğu üçün demirəm. O, məsuliyyətli insandır və ömür boyu məsuliyyət daşıyacaq. Xoşbəxtliyimiz ondadır ki, o insan həmişə üzünün ağ, gördüyü işin keyfiyyətli olmasını düşünür. İnanıram ki, yaxşı olacaq.

## “Anji”nin baş məşqçisi “Sumqayıt” klubunu təriflədi

“Rəqibimiz yaxşı və döyüşkən komanda idi. Oyunçularının yaxşı mübarizəyə kökləndiyi görünürdü. Məsələn, ikinci hissədə qol vəziyyətləri yaratmaq bizim üçün tamamilə ağır idi. Rəqibin aqressiyasını artırdığı hiss olunurdu. Bununla belə, həm oyun keyfiyyəti, həm də yekun nəticə baxımından yaxşı nəticəyə nail olduğumuzu düşünürəm. Eyni zamanda qol buraxmadığımızı müsbət məqam hesab edirəm”.

Bunu Rusiyanın “Anji” klubunun baş məşqçisi Vadim Skripçenko Türkiyənin Antalya şəhərində “Sumqayıt”ı 1:0 hesabı ilə məğlub etdikləri yoxlama matçından sonra deyib. 43 yaşlı mütəxəssis “Olimpiya dünyası” qəzetinə verdiyi müsahibədə fasilədən sonra zəif çıxışlarının səbəbini açıqlayıb: “İlk hissədə komandamız hücum və müdafiədə daha keyfiyyətli çıxış edirdi. İkinci hissədə biz bir sıra dəyişikliklər etdikdən sonra rəqib təşəbbüsə yiyələndi. Oyunçu dəyişikliklərinin tam heyətlə ediləcəyini əvvəlcədən planlaşdırırdıq. Meydana çıxan uşaqların güc futboluna üstünlük vermələri çətin idi. Bununla belə, bu zaman kəsiyində onlar xarakter və döyüşkən keyfiyyətlər ortaya qoydular. Əlbəttə, yaxşı əks-hücumlara meyllilik var idi. Biz ikinci qolu vurmaq üçün bir neçə imkan da yaratdıq. Amma ümumilikdə, hesab edirəm ki, uşaqlar bu gün müsbət qiymətə layiqdirlər”.

Belaruslu baş məşqçi cərimə zərbəsindən fərqlənən Arsen Xubulov barədə də danışıb: “Hər bir komandada standart vəziyyətlərin ifaçıları var. Arsen Xubulov da istisna deyil. İmkanlarını bilir və buna görə də Xubulova etibar edirik. Amma onun oyun vəziyyətindən qol vurmağa başlamasını da istərdik. Ümumilikdə son iki oyunu qol buraxmadan tamamlamağımız müsbət məqamdır. Lakin bununla kifayətlənməməliyik. Bu baxımdan problemimizin olmadığını da düşünmək olmaz. Əlbəttə, bu komponent üzərində daim çalışmaq lazımdır. Amma eyni zamanda müdafiədə daha keyfiyyətli olmağımız xoşdur”.

Qeyd edək ki, “Sumqayıt” “Anji”yə oyunun 21-ci dəqiqəsində buraxdığı qolla uduzub.

## Bədavi Hüseynov tələsmək istəmir

“Yavaş-yavaş sağalıram. Artıq 3 ay geridə qaldı. Həkimlər buna müalicəmin ilkin mərhələsi kimi baxırdılar. Hazırda özümü yaxşı hiss edirəm. Qaçmağa başlamışam, bir müddət sonra topla çalışamalara da başlamaq olar. Yaxınlarda Almaniyaya yollanacağam və belə demək olarsa, tam sağalmağa doğru istiqamət götürəcəyəm”.

Bunu “Olimpiya dünyası” qəzetinə açıqlamasında “Qarabağ” klubunun və Azərbaycan milli komandasının futbolçusu Bədavi Hüseynov deyib. 27 yaşlı müdafiəçi yaşıl meydanlara qayıdışının martın sonu, aprelin əvvəllərinədək çəkəcəyini bildirib. Lakin o, martın 27-də Azərbaycan və Makedoniya yığmaları arasında Türkiyənin Antalya şəhərində təşkil olunacaq yoldaşlıq görüşünə hazır olmasının sual altında olduğunu vurğulayıb: “Tələsmək istəmirəm. Orada oyuna çıxıb zədəni daha da çətinləşdirə bilərəm. Ona görə də risk etməyək. Premyer Liqada mövsümün sonuna qədər bir-iki oyunda çıxış edə bilsəm, yaxşı olar. Əsas gücümü yay ayına saxlayıram. Avrokuboklar və ən əsası, yığmaya Millətlər Liqasında tam gücümlə xeyir vermək istəyirəm. Tələsib, o imkanı da qaçıra bilərəm”.



Qeyd edək ki, Bədavi Hüseynov 2017-ci ilin oktyabrın 18-də Bakıda “Qarabağ”la İspaniya “Atletiko”su arasında keçirilmiş Çempionlar Liqasının qrup mərhələsinin III tur matçında zədələnib.

---

***Rahib Səmədov,***
***Bakı-İstanbul-Antalya-İstanbul-Bakı***

**P.S.** Əməkdaşımızın Türkiyənin Antalya şəhərinə ezam olunmasında yaratdığı şəraitə görə, “Olimpiya dünyası” qəzeti adından PFL rəhbərliyinə minnətdarlığımızı bildiririk.

# DÜNYA İDMANI

## “Onu məğlub etmək üçün 10 saniyə kifayət edəcək”



WBC, İBF və WBO versiyaları üzrə keçmiş dünya çempionu Oskar de la Hoya həmkarı Floyd Meyvezerin qaydasız döyüşdə çıxışı barədə maraqlı fikir bildirib. “Meyvezer rinqdə dahidir. Amma qaydasız döyüşdə onu məğlub etmək üçün 10 saniyə kifayət edəcək. O, Konor Makqreqordan güclü olduğunu rinqdə sübut etdi. Makqreqorla qaydasız döyüşdə o bacarmayacaq”- , deyə Oskar deyib.

Qeyd edək ki, Meyvezer boksda Makqreqoru məğlub etdikdən sonra britaniyalı döyüşçüyə onun öz növündə də qalib gələcəyi barədə səs-küylü açıqlama vermişdi.

## Qızlar Formula-1-ə dəstək verməyəcək



Bir neçə il bundan əvvəl WEC seriyası təşkilatçıları start meydançasına bayraq və iştirakçıların nömrələri yazılmış lövhələrlə çıxan qızlardan imtina etmişdilər. İndi Formula-1 təşkilatçıları onların bu praktikasının davamçısı olacaq.

“Olimpiya dünyası” qəzeti “F1News.ru”ya istinadla xəbər verir ki, 2018-ci il mövsümündən başlayaraq, yarışların start meydançasında, həmçinin Qran-Pri çərçivəsində keçirilən dəstək yarışlarında model görünüşlü qızlar daha görünməyəcək.

Formula-1 yarışlarının kommersiya direktoru Şon Bratçes deyib: “Biz son illər ərzində yenilənməyə ehtiyacı olan bəzi məsələləri nəzərdən keçirdik. “Grid-girls”lərin xidmətlərindən istifadə praktikası artıq on illərdir ki, Formula-1 yarışlarında tətbiq olunur. Lakin hiss edirik ki, bu ənənə bizim brendə və müasir sosial normalara uyğun gəlmir. Biz hesab etmirik ki, bu praktika Formula-1 yarışları üçün münasib və dünyanın hər yerindən olan həm yeni, həm də köhnə azarkeşlərin ürəyincə olacaq”.

## Canlı əfsanə - Mixail Şumaher

Planetin ən nəhəng pilotlarından biri, Formula-1 yarışlarının 7 qat dünya çempionu, tanınmış idmançı Mixail Şumaherin yanvarın 3-də 49 yaşı tamam oldu. Təəssüf ki, “Qırmızı baron” bu ad günündə stolun arxasında oturub, ailəsi ilə birlikdə doğum gününü qeyd edə bilmədi. Artıq 4 ildən artıqdır ki, almaniyalı pilot həyatı uğrunda yaşam mübarizəsi aparır. Başqa sözlə, o, ölüm deyilən amansız rəqiblə yarışır. Qısa bir zamanda məşhur idmançıya həyata qayıtmağı, ailəsinin yanında olmağı, milyonlarla azarkeşini sevindirməyi arzulayırıq.

“Olimpiya dünyası” olaraq tanınmış idmançının həyatı və karyerasından bəzi məqamları diqqətinizə çatdırırıq.

### 4 yaşından kartinq sürüb

Mixail Şumaher 1969-cu il, yanvarın 3-də Almaniyada anadan olub. Valideynləri onu erkən yaşlarında kartinq klubuna yazdırıblar. 4 yaşında sükan arxasında oturan Şumaher 6 yaşında uşaqlar arasında turnirin qalibi olub. Beynəlxalq yarışlarda iştirak etmək üçün ona lisenziya əldə etmək lazım idi. Almaniyada isə həmin lisenziyanı 14 yaşından yuxarı olan idmançılara verirdilər. Mixail Şumaher həmin lisenziyanı Lüksemburq şəhərində almalı olur. 14 yaşına çatdıqda Almaniyaya qayıdan istedadlı idmançı gənclər arasında kartinq üzrə ölkə çempionu tituluna layiq görülür. 1989-cu ildə gənc Şumaher menecer Villi Veberin diqqətini cəlb edir və o, avtomobil yürüşündə peşəkar idmançılardan birinə çevrilir.

1999-cu ildə “Qırmızı baron” qəzaya düşərək sağ ayağını iki yerdən sındırır. Şumaherin yenidən idmana qayıtmağı möcüzə idi. Lakin almaniyalı pilot qayıdır və onu sevən azarkeşlərinə karyerasının bitmədiyini sübut edir. Belə çətin anlarda ona ailəsi - valideynləri, yoldaşı və qızı dəstək verirlər.




### Şumaher cüdo, qaçış, tennis və velosipedlə məşğul olub

O, kartinqdən başqa səhərlər qaçmağa, cüdo, tennisə məşğul olmağa, velosiped sürməyə böyük maraq göstərib. İdmançı siqarlardan istifadə etməyi çox sevirdi. Siqarları o, uğur atributu kimi dəyərləndirirdi. Mixail Şumaher Formula-1 üzrə bir sıra rekordları hələ də öz əlində saxlayır: ən çox çempionluq (7), Qran-pri yarışlarının qələbəsi (91), ən sürətli dövrə (77), ən çox podium (155) və bir mövsümdə ən çox qazanılan qələbələrin (13) sahibi. 2002-ci ildə o, Formula-1 tarixində mövsümün bütün yarışlarını ilk üçlükdə tamamlayan yeganə pilot kimi tarixə düşdü. Şumaher mövsümün bütün sınaqlarından qalib çıxaraq podiuma qalxdı.

2003-cü ildə “Formula-1” yarışlarının final mərhələsindən sonra Mixail Şumaher öz altıncı çempionluq titulunu qeyd etdi. 2006-c ildə karyerasını başa vurduğunu elan etsə də, 2010-cu ildə yenidən idmana qayıtdı və yalnız bir dəfə podiuma çıxdı.

2010-cu ilin noyabrın 14-də Abu-Dabidə keçirilən Qran-pri yarışlarında ilk dönmədə qəzaya uğrayan idmançı xoşbəxtlikdən xəsarət almır. Şumaher şossedə ən böyük nailiyyətini 2012-ci ildə Monakoda keçirilən yarışlarda əldə edir. Həmin yarışdan sonra istedadlı idmançı karyerasını başa vurduğunu bildirir.

Mixail Şumaher karyerası ərzində “Benetton, “”Mersedes” və “Ferrari” komandalarını şərəfini qoruyub. Onun ilk avtomobili FIAT 500 olub.

Tanınmış idmançının futbola və filmlərə böyük marağı olub. Belə ki, məlum qəzadan əvvəl Formula-1 pilot komandasının tərkibində futbol oynayıb. Maraqlıdır ki, Mixail Şumaher 2008-ci ildə keçirilən Avropa çempionatında futbolçu kimi iştirak edib, amma ölkəsi Almaniyanı deyil, İsveçrəni təmsil edib. O, Jan Todtla bərabər “Asteriks və Obeliks Olimpiya Oyunlarında” adlı filmdə çəkilib. Bu filmdə, təbii ki, Mixail Şumaherin avtomobili qırmızı rəngdə olub.

### Sonuncu rəqiblə yarışmaq asan olmadı...

Mixail Şumaher 2013-cü ilin dekabrın 29-da Fransa Alplarında, Meribel xizəksürmə kurortunda xizək sürdüyü zaman yıxılaraq başından güclü zərbə alıb. İdmançını onun dəbilqəsi xilas edib. Zərbə nəticəsində dəbilqə iki yerə bölünüb. Həmin vaxtdan bu yana əfsanə pilot özünə gəlməyib və süni aparatla nəfəs alır.

Şumaherə 15 nəfərlik həkim briqadası qulluq göstərir. Həkimlər pilotun əvvəlki həyata geri dönməsi haqqında olduqca ümidsizdirlər. Son xəbərlər Şumaherin ailəsinin də onun yoxluğuna alışmağa başladığını göstərir.

İdmançının meneceri Sabin Kem alman pilota verilən “Ömür boyu uğur” mükafatını alarkən hər kəsi əfsanənin yoxluğuna alışmağa çağırıb.

Alman mətbuatında isə Mixail Şumaherin şüurunun hələ özündə olduğu xüsusilə uşaqlarının səsini eşitdiyi zaman ağladığı barədə məlumat verilir. Yatağa düşəndən bəri onun çəkisinin xeyli azaldığı da bildirilir.

Əvvəllər 75 kq olan məşhur pilotun çəkisi hazırda 45 kq-dır.

Formula-1-in məşhur pilotu məlum qəzadan əvvəl sığorta şirkəti ilə müqavilə bağlayaraq öz həyatını 90 milyon avro məbləğində sığortalayıb. Müqavilənin şərtlərinə görə, Mixail Şumaher fiziki cəhətdən hərəkətsiz qaldığı təqdirdə, 20 milyon dollar almalıdır. Vəfat etdiyi halda isə, onun həyat yoldaşı və iki uşağına 10 milyon dollar veriləcək. O, bütün sərvətini ailəsinə, həyat yoldaşı Korina və iki övladı, Mik və Mariyaya buraxıb.

Əfsanə pilot sərvətindən xeyriyyə təşkilatlarına da pay ayırmağı da unutmayıb.

*Səadət Hakıyeva*

## Qış transferləri Premyer liqada rekordlarla yadda qaldı

İngiltərə Premyer liqasının klubları bu qış transferlərə, ümumilikdə, 430 milyon funt xərcləyiblər.

Bu, İngiltərə Premyer liqası üçün rekord məbləğdir və təxminən əvvəlki rekord göstəricini - 2011-ci ildəki 225 milyon funtu iki dəfə üstələyir. Bu barədə jurnalist Riçard Konuey “Deloitte”nin tədqiqatlarına istinadən bildirib.

Virgil van Deykin “Sauthempton”dan “Liverpul”a 75 milyon funta, Emerik Laporun “Atletiko”dan “Mançester Siti”yə 57 milyon funta və Pyer-Emerik Obameyanqın Dortmund “Borussiya”sından London “Arsenal”a 56 milyon funta keçməsi ən bahalı transferlər sayılır.

Klubların yanvar transferində futbolçuların satışından əldə etdiyi gəlir 340 milyon funt təşkil edib ki, bu da həmin dövr üçün rekord məbləğdir.

## Sambaçı iki yol ayrıcında qalıb

PSJ-nin hücumçusu Neymar daha bir klubun maraq dairəsinə düşüb. “Marca” qəzetinin yaydığı məlumata görə Madrid “Real”ından sonra “Mançester Yunayted” də ulduz futbolçunu transfer etmək niyyətindədir.

Belə ki, “qırmızı şeytanlar”ın baş məşqçisi Joze Mourinyo rəhbərliklə görüşərək, Neymarın transfer edilməsini tələb edib. Portuqaliyalı mütəxəssis yeni transfer edilən Aleksis Sançeslə braziliyalının hücum xəttində bir-birini başa düşəcəyini düşünür.

PSJ-dən ayrılmaq niyyətində olan 26 yaşlı futbolçu özü də İngiltərəyə köçməyin əleyhinə deyil. Lakin o, daha çox “Real”ın formasını geyinməkdə maraqlıdı.

Qeyd edək ki, Neymar PSJ-yə bu mövsümün əvvəlində 222 milyon avro qarşılığında “Barselona”dan keçib.

## Basketbol qalaktikası daha bir “ulduzunu itirdi”

Keçmiş NBA basketbolçusu Rasual Batler və həyat yoldaşı Lea Label avtomobil qəzasına düşərək, həlak olub. Hadisə Kaliforniyada baş verib. Batlerin idarə etdiyi avtomobil idarəetməni itirərək yol kənarındakı dirəyə çırpılıb.

Məlumat üçün bildirək ki, Rasual Batler 2002-2016-cı illərdə “Mayami”, “Nyu-Orlean”, “Klippers”, “Çikaqo”, “Toronto”, “İndiana”, “San-Antonio” və “Vaşinqton” klublarının şərəfini qoruyub.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və MOK-un kollektivi Xəzər İsayevə, əzizi

**Zülfüqar Qocayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

---

Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin kollektivi mərkəzin baş direktoru, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayevə, əzizi

**Zülfüqar Qocayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

---

“Olimpiya dünyası” qəzetinin kollektivi Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayevə, əzizi

**Zülfüqar Qocayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktorun müavini:
A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54;
564-74-19